AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 SENTYABR 2021-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 195 (7091) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

## Frederik Starın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında siyasi və elmi əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Frederik Star "Dostluq" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 13 sentyabr 2021-ci il.**

## Ağstafa və Qazax rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ağstafa və Qazax rayonlarının əhalisi 49420 nəfər olan 14 yaşayış məntəqəsində *(siyahı əlavə olunur)* əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 16 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,12 milyon (bir milyon bir yüz iyirmi min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 13 sentyabr 2021-ci il.**

*Ağstafa və Qazax rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı qəzetin 2-ci səhifəsində dərc olunur.*

# Ölkəmizdə yeni iş yerlərinin yaradılması artıq daimi xarakter alıb



"Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla bağlı mübarizəni çox yüksək qiymətləndirir. Biz və Azərbaycan xalqı bunu gündəlik həyatda görürük. Hesab edirəm ki, iş yerlərinin açılması daimi proses olmalıdır, çünki əhali artır və potensial kifayət qədər böyükdür".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi ölkə iqtisadiyyatının qeyri - neft-qaz sektorunda dayanıqlı inkişafın təmin edilməsinə, iqtisadiyyatın diversifikasiyası nəticəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına, prioritet sahələrə irihəcmli investisiyaların yönəldilməsinə, yeni müəssisələrin yaradılmasına və yeni iş yerlərinin açılmasına zəmin yaratmışdır.**

Belə ki, 2021-ci ilin 6 ayı ərzində ölkəmizdə 30,9 min yeni iş yeri açılıb. Bu dövrdə yeni iş yerlərinin 89,1 faizi qeyri-dövlət sektorunda yaradılıb. Yeni iş yerlərinin 75,8 faizi Bakı şəhərinin, 0,6 faizi Naxçıvan Muxtar Respublikasının, 23,6 faizi digər rayonların, o cümlədən 4,6 faizi Gəncə-Daşkəsən, 4 faizi Abşeron-Xızı, 3,2 faizi Lənkəran-Astara, 2,8 faizi Quba-Xaçmaz, 2,1 faizi Şəki-Zaqatala, 1,9 faizi Qazax-Tovuz, 1,2 faizi Mərkəzi Aran, 1,1 faizi Şirvan-Salyan, 0,9 faizi Qarabağ, 0,7 faizi Dağlıq Şirvan, 0,7 faizi Mil-Muğan, 0,4 faizi isə Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

Yeni açılan iş yerlərinin 11,7 faizi yeni yaradılan müəssisə və təşkilatlarda, 85,5 faizi mövcud müəssisə və təşkilatlarda, 0,6 faizi fəaliyyətini bərpa edən müəssisə və təşkilatlarda, 2,2 faizi isə digər tədbirlər üzrə yaradılıb.

Hüquqi şəxs statuslu təşkilatlar tərəfindən yaradılan iş yerlərinin 22,8 faizi tikinti, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi emal sənayesi, 7,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 38,3 faizi digər sahələrdə açılıb.

**(davamı 4-cü səhifədə)**

# Müasirləşən regionlarda qabaqcıl texnologiyalar

## Davamlı inkişaf yönündə cənab Prezidentin təşəbbüsü ilə aqroparkların formalaşdırılması böyük əhəmiyyət kəsb edir



"Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir. Təbii ki, eyni zamanda, kiçik fermer təsərrüfatlarının inkişafı ilə bağlı praktiki işlər görülür. Bu iki istiqamət üzrə kənd təsərrüfatı inkişaf edir. Aqroparkların üstünlüyü ondan ibarətdir ki, burada daha bol məhsul yetişdirilir və məhsuldarlıq da daha yüksəkdir. Bu, təbiidir, çünki burada ən müasir aqrotexniki tədbirlər tətbiq olunur" - deyir Prezident İlham Əliyev.

Ölkə başçısının aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq ölkəmizdə aqroparkların yaradılması geniş vüsət alıb. 15 iyul 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" Fərmanında bildirilir ki, ötən dövrdə Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf edərək qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən birinə çevrilmişdir. Aqrar sektorda həyata keçirilən islahatlar və yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu çərçivədə elektronlaşmanın tətbiqi, dövlət xidmətlərinin optimallaşdırılması, eləcə də səmərəli idarəetmə sisteminin qurulması aqrar sahədə keyfiyyət dəyişikliyini şərtləndirmiş və emal sənayesinin güclənməsi üçün əlverişli imkanlar yaratmışdır. Ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir.

**(davamı 5-ci səhifədə)**

## Pandemiyadan ziyan görmüş şirkətlərə dəstək verilir

**Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinin kredit təşkilatlarından, o cümlədən ləğv prosesində olan kredit təşkilatlarından manatla aldıqları kreditlər, həmçinin müəyyən sahələrə (ərzaq) alınacaq kreditlərə 12 ay müddətində hesablanmış faizlər üzrə subsidiya verilir.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı Nazirlər Kabinetinin "Koronavirus (COVİD-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə" Qərarında dəyişiklik edilib.

Bildirilib ki, faiz subsidiyası sahibkarlıq subyektinə verilmiş kreditlər üzrə 2020-ci ilin mart ayından başlayaraq 12 (on iki) aydan çox olmayan müddətdə ödənilmiş və ya ödənilməmiş faizlər üzrə verilir.

Həmin müddətlər ərzaqlıq buğda təchizatçılarına münasibətdə daha 12 ay uzadılaraq 24 ay müəyyən edilib.

**AZƏRTAC**

*MN:*

## Digər ölkələrə aid nəqliyyat vasitələrinin Azərbaycan ərazilərinə qanunsuz keçməsi ilə bağlı Rusiya MN-ə və Sülhməramlı qüvvələrin komandanlığına məktublar ünvanlanıb

**Digər ölkələrə aid nəqliyyat vasitələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərinə qanunsuz keçməsi ilə bağlı Müdafiə Nazirliyi tərəfindən Rusiya Federasiyası Müdafiə Nazirliyi və Sülhməramlı qüvvələrin komandanlığına məktublar ünvanlanıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktublarda qeyd edilib ki, bu kimi hallar Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentlərinin, Ermənistan baş nazirinin 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanata ziddir və onların qarşısının alınması xahiş olunub.

Azərbaycan Respublikasının razılığı olmadan digər ölkələrin hüquqi və fiziki şəxsləri və onlara aid nəqliyyat vasitələri Azərbaycan ərazisinə daxil ola bilməz və bu kimi hallar ölkəmizin qanunlarının pozulmasıdır.

**AZƏRTAC**

# Qazaxıstan parlamentinin nümayəndə heyəti Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib



**Qazaxıstan Respublikası Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik Komitəsinin sədri xanım Aygul Kuspanın rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 13-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül qoyub.**



AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoyublar.

Daha sonra jurnalistlərin suallarını cavablandıran xanım Aygul Kuspan səfər proqramı çərçivəsində Qazaxıstan parlamentinin nümayəndə heyəti ilə birlikdə işğaldan azad edilmiş Şuşa şəhəri barədə təəssüratını bölüşüb. Komitə sədri Şuşada aparılan nəhəng tikinti-quruculuq işlərinin miqyasından heyrətləndiklərini bildirib. O qeyd edib ki, qısa müddətdə belə miqyasda işlərin görülməsi üçün maddi resurslardan əlavə, Vətən sevgisi lazımdır. İnanırıq ki, bu hisslər qarşıya qoyulmuş vəzifələrin həll olunması üçün başlıca impulsdur.

**AZƏRTAC**

# Azərbaycan və Qazaxıstan parlamentləri arasındakı münasibətlər müzakirə olunub

**Sentyabrın 13-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları səmimiyyətlə salamlayan S.Qafarova dost və qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən razılığını bildirib. Xalqlarımız arasında çox qədim tarixə malik münasibətlərin dövlətlərimiz müstəqillik qazandıqdan sonra ulu öndər Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev tərəfindən uğurla inkişaf etdirildiyini vurğulayan Sahibə Qafarova bildirib ki, bu siyasət hazırda Azərbaycanın və Qazaxıstanın dövlət başçıları tərəfindən ardıcıllıqla davam etdirilir.

İki ölkənin qanunverici orqanları arasında əlaqələr haqqında məlumat verən Milli Məclisin sədri vurğulayıb ki, ikitərəfli münasibətlərimiz parlamentlər səviyyəsində də yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları mövcuddur və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi ikitərəfli əlaqələrin inkişafına töhfə verir. Milli Məclisin sədri TÜRKPA çərçivəsində əməkdaşlığı xüsusi qeyd edib.

Sonra Sahibə Qafarova qonaqlara Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər və regionda yeni yaranmış şərait haqqında geniş məlumat verib. O deyib ki, 2020-ci ildə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü hesabına yerinə yetirib. Qarabağ münaqişəsinin artıq tarixə çevrildiyini bildirən Milli Məclisin sədri deyib ki, hazırda Azərbaycan azad olunmuş əraziləri bərpa edir, yenidən qurur. Sahibə Qafarova, həmçinin xatırladıb ki, Ermənistan işğal altında saxladığı şəhər və rayonlarımızı, kəndlərimizi, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri vəhşicəsinə dağıdıb. O, Qazaxıstan nümayəndə heyətinin Şuşa və Füzuli rayonlarına səfər etdiyini, Ermənistan tərəfindən törədilən vandalizmi öz gözləri ilə gördüyünü bildirib.

Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspan səmimi qəbul və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, xalqlarımız və dövlətlərimiz arasında münasibətlərin hazırkı səviyyəsinin məmnunluq doğurduğunu söyləyib. O deyib ki, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız inkişaf edir. Aygul Kuspan xalqlarımız arasındakı əlaqələrin hazırda iki ölkənin dövlət başçıları tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Qazaxıstan Parlamenti Məclisinin komitə sədri qanunvericilik orqanları arasında münasibətlərə də toxunaraq, dostluq qruplarının uğurlu fəaliyyətini təqdir edib.

Aygul Kuspan Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfər münasibətilə təbriklərini çatdıraraq, işğaldan azad olunmuş Şuşa və Füzuliyə səfərləri və orada gördükləri haqqında təəssüratlarını söyləyib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Xarici işlər naziri Ceyhun Bayramov Türkiyə XİN başçısının müavini ilə görüşüb



**Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının xarici işlər nazirinin müavini Faruk Kaymakcının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov iki qardaş ölkə arasında mövcud olan və dinamik şəkildə inkişaf edən ikitərəfli əməkdaşlıq məsələlərinin geniş gündəliyi üzrə fikirlərini qarşı tərəflə bölüşüb. Eyni zamanda, çoxtərəfli platformalarda həyata keçirilən əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini vurğulayıb.

Nazir Mövlud Çavuşoğlunun salamlarını Ceyhun Bayramova çatdıran Faruk Kaymakçı ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin inkişafını məmnunluqla qeyd edib. Nazir müavini Türkiyədə baş verən yanğınlar zamanı Azərbaycanın yardımını yüksək qiymətləndirərək, bu xüsusda təşəkkürünü ifadə edib.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və digər çoxtərəfli çərçivələrdə əməkdaşlıq imkanları üzrə fikir mübadiləsi aparıblar.

**AZƏRTAC**

# Mədəniyyət naziri Bolonyada ICESCO-nun Baş direktoru ilə görüşüb



**İtaliyanın Bolonya şəhərində keçirilən G-20 sammitinin Dinlərarası Dialoq Forumunda iştirak edən Azərbaycanın mədəniyyət naziri Anar Kərimov ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-ICESCO əlaqələrindən söhbət açılıb, Baş direktorun bu ilin yanvar ayında Azərbaycana səfəri, həmin səfər çərçivəsində müzakirə olunan məsələlərlə bağlı yenidən fikir mübadiləsi aparılıb.

Anar Kərimov ICESCO-nun Baş direktorunun bu səfərinin Azərbaycan cəmiyyətində böyük rezonans doğurduğunu, ICESCO-nun 44 günlük Vətən müharibəsi zamanı və müharibədən sonrakı dövrdə ölkəmizə verdiyi dəstəyin bir daha yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Eyni zamanda, həmin səfər çərçivəsində razılaşdırılmış məqamların həyata keçirilməsi üçün konkret addımların atılması ilə bağlı müzakirələr aparılıb.

Salim bin Məhəmməd əl-Malik öz növbəsində Azərbaycana yüksək səviyyədə rəsmi səfərə dəvət edildiyinə və Prezident İlham Əliyev tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirib, görüşlərdə əldə olunan razılaşmaların icrası ilə bağlı ICESCO-nun artıq fəaliyyətə başladığını deyib.

Vurğulanıb ki, buraya ən vacib məqam olaraq Şuşa şəhərinin "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi, Azərbaycanda ICESCO-nun regional ofisinin açılması ilə bağlı məsələlərin tamamlanması, həmçinin ICESCO-da Nizami Gəncəvinin 880 illiyinin qeyd olunması kimi məsələlər daxildir.

Görüş zamanı cari ilin sonuna kimi ICESCO-nun Baş katibliyində Nizami Gəncəvi irsinə həsr olunmuş böyük beynəlxalq tədbirin təşkili, regional ofis ilə bağlı məsələlərin Azərbaycan tərəfinin təklif etdiyi məqamlara aydınlıq gətirildikdən sonra işçi qrup səviyyəsində müzakirə edilməsinə dair ümumi razılıq əldə olunub. Eləcə də bu ilin sonunadək həm ICESCO Baş Konfransında, həm mədəniyyət nazirlərinin konfransında bu məqamlarla bağlı təqdimatların edilməsi razılaşdırılıb.

Baş direktor, eyni zamanda, Azərbaycan tərəfinin yeni təşəbbüsü olan "Mədəniyyət naminə sülh" (Peace4-Culture) qlobal kampaniyasına öz dəstəyini ifadə edərək 2021-ci ilin dekabr ayında keçiriləcək ICESCO Baş Konfransı çərçivəsində bu kampaniyanın geniş təqdimatının keçirilməsinə razılığını ifadə edib.

**AZƏRTAC**

# TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra etmək səlahiyyəti Vüqar Qurbanova verilib



**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı öz ərizəsi ilə tutduğu vəzifədən azad edilib.**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, Agentliyin İdarə Heyətinin sədri Zaur Əliyevin əmri ilə TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra etmək səlahiyyəti Vüqar Cavanşir oğlu Qurbanova verilib. O, hazırda Agentliyin Tibbi iddialar departamentinin rəhbəri vəzifəsini icra edir.

Qeyd edək ki, TƏBİB-in əsas vəzifəsi tibb müəssisələrinin fəaliyyətini icbari tibbi sığorta sisteminin tələblərinə uyğun formalaşdırmaq, tabeliyində olan tibb müəssisələrində əhalinin sağlamlığının qorunması üçün tibbi xidmətlərin təşkilini təmin etmək və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görməkdir.

**AZƏRTAC**

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 sentyabr tarixli Sərəncamına*
*Əlavə*

## Ağstafa və Qazax rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağstafa | 6 | Aşağı Göycəli kəndi | 2547 |
| | | | Göycəli kəndi (2 quyu) | 2774 |
| | | | Köhnəqışlaq kəndi | 698 |
| | | | Tatlı kəndi (2 quyu) | 2741 |
| 2. | Qazax | 10 | Ağköynək kəndi | 3815 |
| | | | Aslanbəyli kəndi | 4323 |
| | | | Aşağı Salahlı kəndi | 1971 |
| | | | Bala Çaylı kəndi | 1240 |
| | | | Cəfərli kəndi | 1268 |
| | | | Çaylı kəndi | 8069 |
| | | | Daş Salahlı kəndi | 10823 |
| | | | Xanlıqlar kəndi | 3705 |
| | | | Kəmərli kəndi | 3221 |
| | | | Qaymaqlı kəndi | 2225 |
| | **Cəmi:** | **16** | **14** | **49 420** |

# Qazaxıstan parlamentinin nümayəndə heyəti Şuşa və Füzuli şəhərlərində olub

**Ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi parlament nümayəndə heyəti sentyabrın 12-də Şuşa və Füzuli şəhərlərində olub.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətini Milli Məclis sədrinin müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov müşayiət ediblər.

Şuşada qonaqlar Qala divarları, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı Gövhərağa məscidi ilə tanış olub, Bülbülün ev-muzeyinə, Xalça muzeyinə baş çəkib, Cıdır düzündə və İsa bulağında olublar.

Qonaqlara məlumat verilib ki, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra bu abidələr Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarətləri altında bərpa edilib.

Həmin gün Qazaxıstan parlament nümayəndə heyətinin üzvləri Füzuli şəhərinə gəliblər. Onlar burada yeni istifadəyə verilmiş Füzuli Hava Limanında olublar. Qonaqlara məlumat verilib ki, qısa müddətdə tikilmiş hava limanına bu günlərdə ilk sınaq uçuşları keçirilib və hava limanı həm yük, həm də sərnişin təyyarələrini qəbul etmək imkanına malikdir.

Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya ilə tanışlıq zamanı qonaqlara məlumat verilib ki, yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına əsasən tikilib. Bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

**AZƏRTAC**

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Anıtqəbri ziyarət edib





Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

Baş Qərargah rəisi Xatirə kitabına ürək sözlərini yazıb.

AZƏRTAC



# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Türkiyənin hərbi rəhbərliyi ilə görüşüb

**Türkiyədə rəsmi səfərdə olan Azərbaycanın müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev sentyabrın 13-də qardaş ölkənin milli müdafiə naziri Hulusi Akar və Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə hərbi, hərbi-texniki, hərbi-təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Həmçinin hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

AZƏRTAC

# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Türkiyəyə səfəri davam edir

**Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev sentyabrın 13-də Türkiyə Respublikasının Baş Qərargahının ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu və Xüsusi Təyinatlı Qüvvələr Komandanı diviziya generalı Ömer Ertuğrul Erbakan ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafı, həmçinin hərbi və digər sahələrdə əməkdaşlığın uğurla davam etməsindən danışılıb.

Son zamanlar iki qardaş ölkənin birgə təlimlərinin əhəmiyyəti xüsusi vurğulanaraq, bu kimi təlimlərin təcrübə mübadiləsi, dostluq və qardaşlığın daha da gücləndirilməsi baxımından müstəsna rol oynayacağı bildirilib və gələcəkdə də birgə təlimlərin keçirilməsinin vacibliyi qeyd edilib.

General-leytenant Kərim Vəliyev Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin hazırda Bakıda keçirilən “Üç Qardaş - 2021” birgə beynəlxalq təlimini hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacib hesab etdiyini bildirib.

Müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsinin sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcəyindən əminlik ifadə edilib.

Sonra Türkiyə Respublikasının Xüsusi Təyinatlı Qüvvələr Komandanlığının ərazisi ilə tanışlıq keçirilib.

Sonda qarşılıqlı şəkildə plaketlər təqdim edilib.

AZƏRTAC

# Gənclər və idman naziri ilə AFFA-nın icraçı vitse-prezidenti arasında görüş olub

**Sentyabrın 13-də AFFA-nın inzibati binasında gənclər və idman naziri Fərid Qayıbov ilə AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov arasında görüş olub.**



AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə keçirilən görüşdə AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov, futbol üzrə Azərbaycan milli komandasının baş məşqçisi Canni De Byazi, Kütləvi Futbol Departamentinin müdiri Fərrux İsmayılov, Gənclər və İdman Nazirliyinin futbol sektorunun aparıcı məsləhətçisi Əliniyaz Mirzəyev iştirak ediblər.

F.Qayıbovu gənclər və idman nazirini vəzifəsinə təyinatı münasibətilə təbrik edən E.Məmmədov onu AFFA rəhbərliyi və futbol ictimaiyyəti adından təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. AFFA-nın icraçı vitse-prezidenti nazirin idman qurumları ilə rəsmi görüşlərinə ölkəmizdə ən kütləvi idman növü olan futboldan başlamasından böyük məmnunluq hissi keçirdiyini bildirib.

Görüşdə AFFA-nın strukturu və fəaliyyəti barədə ətraflı məlumat verilib. AFFA-nın son dörd ili əhatə edən illik hesabat nəşrləri nazirə təqdim olunub. Bildirilib ki, 2010-cu ildən 2020-ci ilədək olan bütün illik hesabatlar ictimaiyyətə şəffaf şəkildə təqdim edilib. Həmin hesabatlarla AFFA-nın saytı vasitəsilə tanış olmaq mümkündür.

Nazirin diqqətinə hazırda gündəmdə olan və həlli vacib bir neçə məsələ də çatdırılıb. Bildirilib ki, 8 komandanın iştirakı ilə keçirilən Azərbaycan Premyer Liqasında idman rəqabəti qənaətbəxş səviyyədə olsa da, AFFA və Peşəkar Futbol Liqası komandaların sayının 10-a yüksəldilməsini istəyir. Lakin maliyyə resurslarının çətinliyi ucbatından müvafiq şərtlərə uyğun gələn klubların olmamasına görə komanda sayını artırmaq mümkün olmur. Bununla belə, Premyer Liqaya yüksələ biləcək potensial klubların fəaliyyətini təmin etmək üçün AFFA Birinci Divizionda çıxış edən bir neçə klubu - “Kəpəz” (Gəncə), “Turan-Tovuz” və “Zaqatala”nı tam şəkildə maliyyələşdirir. Komandaların sayının artırılması Azərbaycan Premyer Liqasında daha güclü rəqabətə, yeni futbolçuların üzə çıxması üçün geniş potensiala və peşəkar futbolun coğrafiyasının genişlənməsinə səbəb olar.

E.Məmmədov uşaq və yeniyetmə futbolu ilə bağlı məsələlərə də toxunaraq bildirib ki, U-9-dan U-19-a qədər bütün yaş qrupları üzrə AFFA tərəfindən liqalar təşkil olunur. Bu liqalarda Təhsil Nazirliyi ilə Gənclər və İdman Nazirliyinin nəzdində olan uşaq futbol məktəblərinin komandalarının da nəqliyyat xərclərini AFFA ödəyir. Üstəlik, müəyyən oyunlar Olimpiya İdman komplekslərinin meydanlarında keçirilir ki, bunun da icarə haqqı AFFA-nın hesabına təmin olunur. AFFA Gənclər və İdman Nazirliyinin bu istiqamətdə dəstəyindən minnətdar olar.

Qeyd olunub ki, futbol pandemiya dövründə ölkəmizdə bəzi turnirlərin mütəmadi qaydada keçirildiyi, üstəlik, ümumilikdə, U-9-dan U-19-a qədər bütün yaş qrupları üzrə yarışların mövcud olduğu yeganə komanda idman növüdür.

Söhbət zamanı son illər ölkəmizdə bir sıra əhəmiyyətli beynəlxalq turnirlərin və oyunların da təşkil olunduğu barədə məlumat verilib. Nazirin diqqətinə çatdırılıb ki, Azərbaycanda 2012-ci ildə FİFA U-17 qadınlararası dünya çempionatı, 2014-cü ildə futzal üzrə UEFA kuboku yarışlarının “Dördlər finalı”, 2016-cı ildə UEFA U-17 Avropa çempionatı, 2019-cu ildə UEFA Avropa Liqasının final oyunu və 2021-ci ildə “Avro-2020”nin final mərhələsinin 4 qarşılaşması təşkil olunub.

Nazirə məlumat verilib ki, son on ildə çox önəmli infrastruktur layihələri həyata keçirilib. AFFA tərəfindən Assosiasiyanın inzibati binasının ərazisində Futbol Akademiyası, “Bakcell Arena”, “Dalğa Arena”, Bayıl stadionu, Mərdəkanda Milli Komandaların Məşq Mərkəzi, Ağsu şəhər stadionu, Tovuz rayonunda Futbol Akademiyası inşa olunub. Hazırda Şamaxı şəhər stadionunun inşası davam edir. Yaxın gələcəkdə Gəncədə də Futbol Akademiyasının tikilməsi nəzərdə tutulub. Bunlardan əlavə, “Zirə” idman kompleksinin, “Sumqayıt” futbol klubunun stadionunun əsas meydanının təbii ot örtüyü, “Neftçi”nin “Türkish Airlines” bazasında təbii örtüklü üç məşq meydanı, Bakı Olimpiya Stadionunun ərazisində təbii örtüklü iki məşq meydanı AFFA tərəfindən inşa olunub. Bakıda və respublikanın müxtəlif bölgələrində 150-dən çox süni örtüklü meydança tikilərək əhalinin istifadəsinə verilib. Bütün bu layihələr ilk növbədə dövlətimizin, FİFA-nın, UEFA-nın və sponsorların maliyyə dəstəyi ilə AFFA tərəfindən həyata keçirilib.

Qeyd olunub ki, uzun illərdir SOCAR AFFA-nın baş sponsorudur və futbolda sabit maliyyənin dəstəyinin təmin olunmasında AFFA-ya böyük dəstək göstərir. Həmçinin AFFA-nın bir neçə başqa sponsoru da var. Lakin pandemiya ilə əlaqədar hazırkı tərəfdaşlarla əməkdaşlığın davam etdirilməsi və yeni sponsorların tapılması istiqamətində müəyyən çətinliklər mövcuddur.

Görüşün sonunda vurğulanıb ki, AFFA futbolun inkişafı, sağlam həyat tərzinin təbliği və təşviqi istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcək.

Gənclər və idman naziri Fərid Qayıbov səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirib.

AZƏRTAC

# İtaliya mətbuatında azad edilmiş ərazilərimizdə 300 gün ərzində reallaşdırılan mühüm layihələrə dair məqalə dərc olunub

**İtaliyanın “Notizie Geopolitiche” analitik portalında Roma Sapienza Universitetinin Avropa tarixi üzrə fəlsəfə doktoru Dariuş Rahiminianın müəllifi olduğu “Azərbaycan. üçtərəfli bəyanatdan 300 gün sonra Qarabağda bərpa işləri” sərlövhəli məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə müəllif Qarabağ bölgəsinin 1990-cı illərdə Ermənistanın Azərbaycana qarşı hərbi işğalı nəticəsində başlanmış və 2020-ci il noyabrın 9-da Azərbaycan Ordusunun azad etməsi ilə yekunlaşmış münaqişə ilə tanındığını qeyd edərək imzalanmış üçtərəfli bəyanatın hərbi əməliyyatların dayandırılmasına gətirib çıxardığını və nəticədə bütün azad edilmiş ərazilərin Azərbaycan tərəfindən başladılmış sürətli və məhsuldar yenidənqurma yoluna qədəm qoyduğunu bildirir. Qeyd edilir ki, Azərbaycan bu ərazilərdə bərpa, yenidənqurma və müharibədən sonrakı reinteqrasiya mərhələsinə başlayıb və bir milyon azərbaycanlı məcburi köçkünün öz yurdlarına qayıtması üçün əsas şərt sülh, minalardan təmizlənmə və bərpa quruculuq işləridir.

Bu xüsusda, ötən 300 gün ərzində atılmış mühüm addımlardan təfərrüatlı şəkildə bəhs edən müəllif ilk olaraq Qarabağ və Şərqi Zəngəzur bölgələrində 15 min hektardan çox ərazinin minalardan təmizləndiyini, üçtərəfli bəyanatın imzalanmasından sonra 160-a yaxın azərbaycanlı mülkü şəxsin işğal dövründə Ermənistan işğalçı qüvvələri tərəfindən basdırılmış minaların partlaması səbəbindən yaralanıb, həlak olduğunu və hərbi əməliyyatların başa çatmasına baxmayaraq, Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina etdiyini diqqətə çatdırır.

Digər mühüm addım kimi cari il sentyabrın 5-də işğaldan azad edilmiş ərazilərdə 7 ay ərzində tikilmiş birinci hava limanı olan Füzuli beynəlxalq hava limanına Bakıdan “Azərbaycan Hava Yolları”na məxsus ən böyük “Airbus A340-500” tipli sərnişin təyyarəsinin eniş etdiyini qeyd edən müəllif həmin gündə, eyni zamanda, “Silk Way” aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan “Boeing 747-400” tipli hava gəmisinin də həmin hava limanına endiyini və bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklərin çatdırıldığını vurğulayır. Laçın və Zəngilanda da hava limanlarının inşa edildiyini deyən müəllif bununla “Azərbaycan Hava Yolları”nın Qarabağ və Şərqi Zəngəzurda yeni həyat qurmaq istəyən məcburi köçkünlər üçün yeni iş yerləri təklif edən ilk şirkətlərdən olduğunu qeyd edir.




İşğaldan azad edilmiş ərazilərdə avtomobil yollarının inşası ilə bağlı həyata keçirilən layihələrə diqqət çəkən müəllif bu istiqamətdə işlərin intensiv şəkildə davam etdiyini, 2,4 və 6 hərəkət zolağından ibarət Əhmədbəyli-Füzuli-Şuşa “Zəfər yolu”nun, Şükürbəyli-Cəbrayıl-Hadrut, Xudafərin-Qubadlı-Laçın-Xanlıq-Qubadlı, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu kimi yolların çəkildiyini, çətin relyefi nəzərə alaraq həmin yolların üzərində körpü və tunellərin də inşasının aparıldığını bildirir. Üçtərəfli bəyanatda da nəzərdə tutulduğu kimi bölgəni iqtisadi cəhətdən inteqrasiya etmək və xarici ölkələrlə və Azərbaycanın digər şəhərləri və bölgələri, o cümlədən Naxçıvan ilə təmasları və ticarəti asanlaşdırmaq üçün kompleks bir dəmir yolu şəbəkəsinin qurulmaqda olduğunu vurğulayır.

Görülən işlər arasında şəhərsalma sahəsində aparılan fəaliyyətdən bəhs edən müəllif yerlə-yeksan edilmiş, “ruhlar şəhəri” və ya “Qafqazın Xirosiması” kimi tanınan Ağdam şəhərinin baş planının artıq təsdiq edildiyini, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində bir çox tarixi binaların və abidələrin, habelə “Xarıbülbül” və “Qarabağ” mehmanxanalarının bərpa edilərək istifadəyə verildiyini, şəhərdə yeni yaşayış kompleksinin, çoxsaylı bərpa və tikinti layihələrinin icrasına başlanıldığını diqqətə çatdırır.

Müəllif, habelə 2022-ci ilin əvvəllərinə qədər yekunlaşacaq, Zəngilanın Ağalı kəndlərini əhatə edəcək ilk “Ağıllı kənd” layihəsindən bəhs edərək bu inkişaf modelinin işğaldan azad edilmiş digər ərazilərə də tətbiq olunacağını bildirir. Azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı istiqamətində tədbirlərə başlanıldığını, bu xüsusda Ağalıda “Ağıllı kənd” layihəsi çərçivəsində İsrail və İtaliya şirkətlərinin birgə əməkdaşlığı çərçivəsində heyvandarlıq və südçülük müəssisələrinin qurulması istiqamətində iş aparıldığını da bildirir.

Məqalədə, həmçinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə 1376 tarixi abidə və arxeoloji əhəmiyyət daşıyan yerlərin müəyyən edildiyi, onların bərpası istiqamətində mühüm addımların atıldığı qeyd olunur. Ərazilərin vaxtilə işğalı səbəbindən keçirilməsi dayandırılmış bəzi ənənəvi mədəni tədbirlərin də yenidən bərpa edildiyini qeyd edən müəllif, bu xüsusda Şuşada “Xarıbülbül” Musiqi Festivalı və Vaqif Poeziya Günlərinin təntənəli şəkildə keçirildiyindən bəhs edir.

Azərbaycan hökumətinin azad edilmiş əraziləri yaşıl enerji zonası elan etdiyini deyən müəllif bu xüsusda, İtaliyanın “Ansaldo” və Böyük Britaniyanın BP şirkətləri ilə bağlanılmış müqavilələrin bölgədə alternativ enerji mənbələri üçün əsas yaratdığını vurğulayır.

Aparılan işlərin fonunda Azərbaycanın qısa müddət ərzində ölkənin sosial-iqtisadi inkişafına töhfə verəcək və bütün dünya ilə iqtisadi və mədəni mübadilələr üçün üfüqləri daha da genişləndirəcək böyük nəticələr əldə etdiyini bildirən müəllif məqaləsini bu fikirlərlə yekunlaşdırır: “Ermənistanın işğalı ilə 30 il ərzində ağrı yaşayan, viran olunan və sistematik məhv edilən torpaqlarda onların azad edilməsindən keçən cəmi 300 gün ərzində həyatın bərpası ilə bağlı Azərbaycanın əldə etdiyi mühüm nəticələr bu ərazilərin Azərbaycana məxsusluğunun bariz nümunəsidir”.

AZƏRTAC

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkil etdiyi növbəti tədbirdə aktual mövzulara həsr olunan məruzələr dinlənilib

**Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığının artırılması, qanunvericiliyə edilən dəyişikliklərin mənimsənilməsi, istintaq, dövlət ittihamının müdafiəsi, cinayət təqibindən kənar fəaliyyət üzrə vahid təcrübənin formalaşdırılması, insan hüquq və azadlıqlarının müdafiəsi problemlərinin öyrənilməsi məqsədilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən tədris tədbirləri davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, “Zoom” proqramı vasitəsilə onlayn şəkildə keçirilmiş növbəti - üçüncü tədbirdə müvafiq sahələr üzrə zəngin təcrübəsi olan mühazirəçilərin “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 303-cü maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında cinayət işlərinin baxılmasına xitam verilməklə prokurora qaytarılmasına səbəb olan səciyyəvi kobud pozuntular” və “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ, insan hüquqları ilə bağlı qanunvericilik aktları, dövlət proqramları və beynəlxalq sənədlər” mövzularında məruzələri dinlənilib, mövzular ətrafında geniş müzakirələr aparılıb, dinləyicilərin sualları cavablandırılıb.

Tədbirdə, həmçinin milli qanunvericiliyə edilmiş mühüm əlavə və dəyişikliklər, qüvvəyə minmiş yeni qanunlar, fərmanlar və sərəncamlar, habelə Konstitusiya və Ali Məhkəmə Plenumunun qərarları barədə dinləyicilərə ətraflı məlumatlar verilib.

Sonda maraq doğuran digər suallar mühazirəçilər tərəfindən cavablandırılıb, eləcə də dinləyicilər arasında faydalı fikir mübadiləsi aparılıb.




Qeyd edək ki, Elm-Tədris Mərkəzi tərəfindən silsilə xarakter daşıyan tədris tədbirləri avqustun 13-dən başlayaraq keçirilir.

AZƏRTAC

# Prokurorluğa dövlət qayğısı qanunçuluğun möhkəmləndirilməsini şərtləndirir

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın israrlı təkidi və xahişləri ilə növbəti dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə köklü islahatlara başlanıldı. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental islahatlar sayəsində sürətlə inkişaf edən ölkəmizdə paralel olaraq hüquq sahəsində də əsaslı yeniliklərin aparılmasına zəmin yarandı. Bu sahədə aparılan islahatlarda dahi rəhbərin 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanı xüsusi əhəmiyyət kəsb etmişdir. Qeyd olunan istiqamətdə səmərəli fəaliyyət, o cümlədən adıçəkilən fərmanın uğurlu icrası hüquq-mühafizə orqanlarının cinayətkar təzahürlərə, xüsusən də mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı səfərbər olunması və "cəzanın labüdlüyü" prinsipinin reallaşması ilə nəticələndi.**

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində ictimai münasibətlərin əhəmiyyətli dəyişməsi yeni qanunların qəbul edilməsini zəruri etsə də, bu prosesin qısa bir zamanda və ələlxüsus da əlverişsiz ictimai-siyasi bir şəraitdə baş tutması mümkün olmadığı üçün, müvəqqəti olaraq əvvəlki qanunlardan istifadə edilməsi labüd olduğundan, 18 oktyabr 1991-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının 4-cü maddəsində müvafiq qanunlar qəbul edilənədək keçmiş SSRİ qanunlarının respublikanın suverenliyinə və ərazi bütövlüyünə zidd gəlməyən həddə Azərbaycan Respublikasında qüvvəsini saxlamasına dair müddəalar təsbit edilmişdir. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ümummilli lider Heydər Əliyevin hüquqi dövlət quruculuğunda ən böyük xidmətlərindən biri olan müstəqil respublikamızın ilk Konstitusiyasının demokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanmasını təmin etməsi, ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi üçün təşəbbüs göstərməsi hüquqi islahatlara hərtərəfli dəstək olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında "Heydər Əliyev Konstitusiyası" adlandırılır. Müstəqil Azərbaycanın 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi də ümummilli lider Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsi idi.

1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulması, daha sonra onun tətbiqinin məhdudlaşdırılması, 10 fevral 1998-ci il tarixdən Şərqdə ilk dəfə olaraq ölkəmizdə bu cəza növünün ləğv edilməsi-fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanan bu tarixi addım humanizm, insanpərvərlik, ədalət və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Ulu Öndərin 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasının növbəti təzahürü idi.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin və xalqın maraqlarına, qanunun aliliyinin təmin edilməsinə və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici və maddi-sosial bazanın yaradılması da ulu öndərin prokurorluqla bağlı həyata keçirdiyi ardıcıl və çoxşaxəli islahatlar, prokurorluğa göstərdiyi böyük dəstək və qayğı sayəsində mümkün olmuşdur.

> Dərin minnətdarlıq hissi ilə qeyd olunmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan hüquq-mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və qayğı göstərilməsi ənənəsi möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən də davam etdirilir.

Hər kəsə, o cümlədən hər bir prokurorluq işçisinə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların ilkin əsasını və qanunvericilik bazasını dahi rəhbərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmişdir.

Azərbaycan Prokurorluğu bir əsrə yaxın müddət, 80 il ərzində dövlətin etibarlı dayaqlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il 1 oktyabr tarixinin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması təkcə tarixi reallığın bərpa olunması deyil, həmçinin hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğun roluna rəsmi münasibətin və dövlət qayğısının yüksək səviyyədə təzahürü olmuşdur.

28 noyabr 1998-ci il tarixdə Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda Ulu Öndərin prokurorluğun fəaliyyətini istiqamətləndirən: "...Azərbaycan Prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir, bizim tələbimiz isə qanundur, qanunun aliliyidir, mənəviyyatın da hamısı qanunun içərisindədir. Prokurorluq peşəsi ağır, çətin peşədir, amma, eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır, buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram..." kimi dəyərli kəlamlarını hər bir prokurorluq işçisi daim rəhbər tutmaqla xidməti fəaliyyətində tətbiq edir.

Dərin minnətdarlıq hissi ilə qeyd olunmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan hüquq-mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və qayğı göstərilməsi ənənəsi möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən də davam etdirilir. Xüsusi vurğulanmalıdır ki, Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində möhtərəm Prezidentimizin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" mühüm əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Sevindirici və qürurvericidir ki, cənab Prezident İlham Əliyev öz praqmatik və müdrik siyasəti ilə Azərbaycanı daim irəli aparır və ölkəmizin uğurları durmadan artır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalq da öz növbəsində Prezidentini hamılıqla dəstəkləyir. Prezident-xalq birliyinin sayəsində Azərbaycan gələcəyə doğru inamla addımlayır. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çoxşaxəli islahatlar aparılır, nəhəng layihələr reallaşdırılır, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, regionların tarazlı inkişafı təmin olunur, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilir.

Dövlətimizin hərtərəfli qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və mahir idarəçilik qabiliyyətinə malik, hər bir məqamda dövlət başçısının yanında olan etibarlı silahdaşın-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

İftixar hissləri ilə vurğulanmalıdır ki, Vətən müharibəsində qazanılmış möhtəşəm zəfər Azərbaycanın qüdrətinin ən bariz sübutudur. Bu tarixi qələbə Azərbaycan dövlətinin qüdrətini, xalqımızın əzmkarlığını, rəşadətli ordumuzun gücünü, eləcə də dünya siyasətində öz layiqli yerini tutan mahir diplomat lider və yenilməz sərkərdə olan dövlət başçısı cənab İlham Əliyevin müdrikliyini və sarsılmaz qətiyyətini bir daha dünyaya göstərdi.

Qeyd olunmalıdır ki, prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları qürur dolu 44 gün ərzində də istər xidmət yerində, istərsə də ezam olunduqları müvafiq ərazilərdə həm xidməti vəzifələrinin icrası ilə bağlı, həm də vicdanlı bir vətəndaş kimi üzərlərinə düşənləri layiqincə yerinə yetirmişlər.

Ölkə başçısı cənab İlham Əliyevin mütəmadi olaraq verdiyi səmərəli tövsiyələri və dəyərli göstərişləri əsasında Azərbaycan Respublikasının Prokurorluq orqanlarında müasir tələblərə uyğun və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azdlıqlarının etibarlı qorunması, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur. Həyata keçirilən möhtəşəm islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevrilmişdir. Qeyd olunmalıdır ki, prokurorluq əməkdaşları öz xidməti vəzifələrini tam məsuliyyətlə, vicdanla və peşəkarlıqla yerinə yetirməklə yanaşı, cəmiyyətdə yüksək insanlıq və əsl vətəndaşlıq nümunəsi göstərirlər. Cinayət hadisələri üzrə istintaqın aparılmasında, cinayətkarların müəyyən edilib məsuliyyətə cəlb olunmasında və layiq olduqları cəzalara məhkum edilməsində prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının da xidmətləri danılmazdır. Minnətdarlıq hissləri ilə xüsusi vurğulanmalıdır ki, Azərbaycan Prokurorluğu əməkdaşlarının müstəqil dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinə, Azərbaycan Respublikasında dövlətçiliyin qorunmasındakı, sabitliyin təmin edilməsindəki, mürəkkəb və çoxepizodlu cinayət işlərinin, eləcə də xüsusi təhlükəli dövləti cinayətlərin istintaqının yüksək peşəkarlıqla aparılmasındakı fəaliyyətlərinə Prezident cənab İlham Əliyev tərəfindən dəfələrlə yüksək qiymət verilmiş, prokurorluğun əməkdaşları orden və medallarla təltif edilmişdir.

Bu gün Azərbaycan Prokurorluğu özünün yeni - uğurlu dövrünü yaşayır. Məlum olduğu kimi, ötən il möhtərəm Prezident İlham Əliyev II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevi Azərbaycan Respublikasının Baş prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevi isə yenidən Azərbaycan Respublikasının Hərbi prokuroru təyin etmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin 2020-ci il may ayının 1-də Azərbaycan Respublikasına yeni Baş prokuror təyin etməsi və II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin elə həmin gün videoformatda qəbulu zamanı dövlət başçısının verdiyi dəyərli tapşırıq və tövsiyələrin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarında həyata keçirilməsi ilə prokurorluğun inkişafının yeni tərəqqi dövrü başlamışdır.

> Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il 1 oktyabr tarixinin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması təkcə tarixi reallığın bərpa olunması deyil, həmçinin hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğun roluna rəsmi münasibətin və dövlət qayğısının yüksək səviyyədə təzahürü olmuşdur.

Vurğulamaq lazımdır ki, cənab Prezident İlham Əliyevin siyasi iradəsi ilə reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq prokurorluğun kadr korpusunun da şəffaf prosedurlar əsasında yeniləşdirilməsi istiqamətində məqsədyönlü işlər cənab Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə eyni intensivliklə davam etdirilir.

Möhtərəm Prezident cənab İlham Əliyevin ədliyyə general-leytenantı Xanlar Vəliyevi yenidən Azərbaycan Respublikasının Hərbi prokuroru vəzifəsinə təyin etməsi Hərbi Prokurorluğa, onun rəhbərliyinə və kollektivinin fəaliyyətinə verilən yüksək qiymətin təzahürü olmuşdur.

Prokurorluğa, o cümlədən Hərbi Prokurorluğa, eləcə də prokurorluq əməkdaşlarına dövlət səviyyəsində verilən yüksək dəyərin məntiqi nəticəsi olaraq prokurorluq kollektivinin üzvləri daha məsuliyyətli olmaqla xidməti vəzifələrini layiqincə icra edir. Əminəm ki, hər bir prokurorluq əməkdaşı bundan sonra da əzmlə çalışaraq qanunların keşiyində durmaq kimi şərəfli işinin öhdəsindən məharətlə gələcəkdir.

**Elmir SÜLEYMANLI,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kadrlar şöbəsinin rəisi,**
**Ədliyyə polkovniki.**





# "Üç qardaş-2021" beynəlxalq təliminin açılışına həsr olunan təntənəli mərasim keçirilib



**Sentyabrın 12-də Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Üç qardaş-2021" beynəlxalq təliminin açılışına həsr olunan təntənəli mərasim keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Cavanşir Xüsusi Təyinatlı Qüvvələr komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyevə təlim iştirakçılarının açılış mərasiminə hazır olduqları barədə məruzə edib.





Xüsusi Təyinatlı Qüvvələr komandanı üç dövləti təmsil edən xüsusi təyinatlıları birgə təlimlərin başlaması münasibətilə təbrik etdikdən sonra Azərbaycan, Türkiyə və Pakistanın şəhidlərinin xatirəsini yad etmək ucun bir dəqiqəlik sükut elan olunub.

İştirakçı ölkələrin dövlət himnlərinin müşayiəti ilə həmin respublikaların dövlət bayraqları qaldırılıb.

General-leytenant H.Mirzəyev çıxış edərək Türkiyə və Pakistan xüsusi təyinatlılarının nümayəndələrini Azərbaycanda görməkdən çox məmnun olduğunu bildirərək deyib: "Azərbaycan, Türkiyə və Pakistan bəşəriyyət tarixinə bir-birinə yaxın dost və qardaş ölkələr kimi düşüb. Bu əlaqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır. Buna əyani sübut kimi Azərbaycanın 2020-ci il sentyabrın 27-də təcavüzkar Ermənistanın silahlı qüvvələrinə qarşı başladığı 44 günlük əks-hücum əməliyyatının ilk günündən Türkiyə və Pakistanın Azərbaycana həmrəylik və dəstək nümayiş etdirməsini göstərmək olar. Bu gün ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlıq ən yüksək səviyyədədir. Regionun və xalqlarımızın təhlükəsizliyinin təmin edilməsi üçün əlaqələrimizin daha da gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir".

General-leytenant H.Mirzəyev "Üç qardaş-2021" beynəlxalq təlimlərinin hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacağına və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəyinə əminliyini bildirib.

Türkiyə və Pakistan nümayəndə heyətlərinin rəhbərləri polkovnik-leytenant Kürşad Konuk və polkovnik-leytenant Aamir Şahzad çıxış edərək qeyd ediblər ki, xalqlarımız və ordularımız arasında bu dostluq bağı sürətlə dəyişən qlobal mühitdə zamanın sınaqlarından uğurla çıxacaq, beynəlxalq siyasi dəyişikliklərin güclü külələri bütün dünyanı bürüsə də, bu üç qardaş etibarlı regional tərəfdaş və əməkdaş olaraq daha da yaxınlaşacaqdır. "üç qardaş-2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək, eyni zamanda, terrorla mübarizə üçün yeni üsulların kəşf edilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqlarımızı inkişaf etdirməyə imkan yaradacaq.

Açılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin komandanlığı qonaqlarla görüşüb, onlara təlimlərdə uğurlar arzulayıb.

Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanan "Əbədi, sarsılmaz qardaşlarıq biz" adlı musiqili-xoreoqrafik kompozisiya və "Üç qardaş-2021" beynəlxalq təliminə həsr olunan "Üç qardaş" mahnısının təqdimatı ilə açılış mərasimi başa çatıb.

**AZƏRTAC**

# Şuşa şəhəri ilə tanışlıq könüllü təşkilatlarının nümayəndələrində unudulmaz təəssürat yaradıb

**Sentyabrın 13-də Azərbaycanın aparıcı könüllü təşkilatlarının nümayəndələrinin Şuşaya səfəri olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ) tərəfindən reallaşdırılan səfərdə 20-dək könüllü təşkilatının 50-dən çox nümayəndəsi iştirak edib.



Məqsəd Ermənistan tərəfindən işğal dövründə törədilmiş dağıntıların və vandalizmin nəticələrini görmək, işğaldan azad edilmiş torpaqlarda hazırkı vəziyyət, qədim Şuşa şəhərinin tarixi-mədəni irsi, eləcə də burada görülən abadlıq-quruculuq işləri ilə tanış olmaqdır.

Könüllü gənclər səfər çərçivəsində Cıdır düzü, Yuxarı və Aşağı Gövhərağa məscidlərini, Qala divarlarını, Gəncə qapısı, Prezident İlham Əliyevin tapşırığı ilə Bakıdan Şuşaya gətirilən, Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin büstləri, ermənilər tərəfindən 30 ilə yaxın müddətdə vəhşicəsinə dağıdılmış digər mədəniyyət abidələri, inzibati və yaşayış binalarını ziyarət ediblər.

Səfərin iştirakçıları 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbə uğrunda canından keçən qəhrəman şəhidlərimizin xatirələrini dərin ehtiramla yad ediblər.



Gənclər Prezident İlham Əliyevin yaxın günlərdə çıxışlarının birində söylədiyi "Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər" sözlərini xatırlayıb, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın zəngin tarixi, mədəni irsini dünyaya çatdırmaq, quruculuq-bərpa işlərində gənclərin də yaxından iştirak edərək bu şərəfli missiya uğrunda dövlətimizin başçısının tapşırıqlarının uğurla həyata keçirəcəklərini bildiriblər.

Qeyd edək ki, bundan əvvəl Gənclər Fondunun təşkilatçılığı ilə könüllü təşkilatlarının nümayəndələrinin Ağdama səfəri təşkil olunub.

**AZƏRTAC**

# Müasirləşən regionlarda qabaqcıl texnologiyalar

**(əvvəli 1-ci səhifədə)**

Rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması məqsədilə istehsalçıların müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına asan çıxışının təmin edilməsi, bazar infrastrukturunun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi tələb olunur.

İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindəndir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunması ilə yanaşı, qeyri-neft sektorunun da ümumi daxili məhsulda xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə artmışdır. Ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektoru ötən dövr ərzində iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyənləşdirilmiş və görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır. Kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən Dövlət proqramları qəbul edilmişdir. Eləcə də, ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılmışdır.

Bu il aprel ayının 20-də Hacıqabulda "Azərsun Şamaxı Aqropark"ın açılışında Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. Qeyd edək ki, müəssisə 2 hissədən - əkin sahələri və heyvandarlıq kompleksindən ibarətdir. Heyvandarlıq kompleksində 2000 baş südçülük istiqamətli olmaqla, 5000 baş iribuynuzlu heyvan saxlanılır. Gündəlik süd istehsalı 50 tondur. Müəssisə gələn ildən etibarən 1000 baş damazlıq düyə yetişdirməyi hədəfləyir. Kompleksdə Azərbaycanda ilk dəfə embrion köçürülməsi həyata keçirilib. Aqroparka məxsus 4200 hektar əkin sahəsində buğda, arpa, şəkər çuğunduru, qarğıdalı, yonca və müxtəlif növ tərəvəzlər əkilir. Aqropark yaradılarkən müasir suvarma sisteminin quraşdırılması nəzərə alınıb. Suvarma üçün ümumi tutumu 2,6 milyon kubmetr olan iki süni göl yaradılıb. Ərazidə ən müasir texnologiyaların tətbiqi ilə suvarma sistemi qurulub. Ümumilikdə 77 milyon manat sərmayənin yatırıldığı aqroparkda 200 nəfər daimi işlə təmin olunub. Bundan əlavə, mövsümdə işçilərin sayı 500 nəfərə çatır. Cənab İlham Əliyevin bildirdiyinə görə, ölkəmizdə 50-yə yaxın aqropark yaradılacaq. Dövlət dəstəyi ilə yaradılan bu iri təsərrüfatların məqsədi regionlarımızda tarladan istehlakçı süfrəsinə qədər bütün istehsal və emal sənayesini əhatə edən böyük şəbəkənin yaradılmasıdır.



## Davamlı inkişaf yönündə cənab Prezidentin təşəbbüsü ilə aqroparkların formalaşdırılması böyük əhəmiyyət kəsb edir

Qeyri-neft sektorunun inkişafı çərçivəsində Prezident İlham Əliyevin həyata keçirdiyi aqroparkların yaradılması siyasəti olduqca böyük əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan aqrar ölkədir. Xüsusilə neft və qaz hasilatından əldə olunan xammalın qiymətinin dünya bazarında ucuzlaşmasından sonra ölkəmizin ümid bəslədiyi əsas sektorlardan biri və başlıcası kənd təsərrüfatı müəssisələri ola bilər. Artıq 2016-cı ildən bu istiqamətdə ciddi işlər görülür, aqrar sektorun infrastrukturunun möhkəmləndirilməsi tədbirləri görülür. Prezidentimizin uzaqgörənliyi sayəsində həyata keçirilən əsas tədbirlərdən biri də aqroparkların istifadəyə verilməsidir. Müasir texnologiyalarla təchiz olunmuş aqroparklarda kənd təsərrüfatı ilə məşğul olmaq istəyən vətəndaşlarımıza hər cür dəstəyin verilməsi nəzərdə tutulur. Fermerlərimiz bu iri müəssisələrdə həm yetişdirəcəkləri məhsulun istehsalı ilə bağlı hər cür maarifləndirici məlumatlar alacaq, həm yerli şəraitə uyğunlaşdırılmış toxumlarla təchiz olunacaq, həm biçin müddətində aqroparkların texnikalardan yararlana biləcək, həm də məhsullarını bazara çıxarmaq və ya satışını təşkil etmək imkanı qazanacaqlar. Bir sözlə, aqroparklar regionlardakı vətəndaşlarımızı işlə təmin edən əsas struktura çevriləcək və nəticədə kənd təsərrüfatı sektoru planlı şəkildə inkişaf mərhələsinə qədəm qoyacaq.

Yaradılmağa 2017-ci ildən başlanan aqroparkların aqrar sektora qazandırdığı dividendlərə nəzər salanda cənab Prezidentin yanılmadığını görə bilərik. Aqroparklar ilk növbədə məhsuldarlığın artmasına səbəb olub. Onlardan bir çoxu artıq fəaliyyətdədir. Ümumi investisiya qoyuluşu iki milyard manatdan çoxdur. Əgər biz bu işləri özəl sektorla birlikdə görməsəydik, bu investisiyaları heç kim qoymazdı. Çünki dövlət həm güzəştli şərtlərlə müəyyən məbləğdə kreditlər verir, eyni zamanda, infrastruktur layihələri həyata keçirir və özəl sektor üçün şərait yaradır. Özəl sektor isə bu vəsaiti təşkil edir. Son bir neçə il ərzində kənd təsərrüfatına qoyulan iki milyard manat vəsait çox böyük vəsaitdir. Bu aqroparklar - "Aqro Dairy" və "Azərsun" aqroparkları son 4-5 il ərzində yaradılmışdır. Bütün ölkə üzrə aqroparklarda çalışanların sayı yeddi mini ötüb. Bunlar kəndlərdə yaşayan insanlar üçün iş yerləridir. "Biz daxili istehsalı və qeyri-neft sektorunu stimullaşdırırıq. Mən həm "Aqro Dairy"da, həm də burada - "Azərsun" aqroparkında onları idarə edən şəxslərə tövsiyə etmişəm ki, azad olunmuş torpaqlarda, Qarabağda buna oxşar təsərrüfatlar yaradılsın və bu istiqamətdə ilkin addımlar atılmaqdadır."

Azərbaycan Prezidenti İlham Əliyev həmin aqroparkların hər birinin açılışında iştirak edib, əməkçilərlə görüşüb və öz tövsiyələrini verib. Bu isə ölkə başçısının müasir tələblərə cavab verən belə aqromüəssisələrə çox böyük önəm verməsini sübut edir. Rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, qeyri-neft ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edəcək bu aqroparkların yaradılması nəticəsində kənd təsərrüfatı məhsullarımızın istehsalı böyük həcmdə artacaq. Bununla da ölkə qarşısında duran əsas vəzifələrdən biri - ərzaq təhlükəsizliyi məsələsi öz həllini tapacaq. Prezident İlham Əliyevin 05 iyun 2018-ci il Goranboy rayonunda "Region Aqropark"ın açılışında dediyi kimi, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışını bütünlükdə bir zəncir kimi özündə birləşdirən və kənd təsərrüfatı məhsullarının torpaqdan istehlakçının süfrəsinədək bütün mərhələləri əhatə edən, həmçinin uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş torpaqları yenidən dövriyyəyə qaytaran bu aqroparklar həm də regionlarda yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Aqroparkların bir üstünlüyü də ondan ibarətdir ki, onlarda ən müasir texnologiyalar tətbiq olunur, o cümlədən müasir suvarma texnologiyaları, pivot suvarma sistemləri quraşdırılır. Cənab İlham Əliyev kənd təsərrüfatı məhsullarının müasir innovasiya və elmi əsaslarla istehsalını yüksək dəyərləndirərək deyib: "Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq. Bir daha deyirəm ki, dünyanın bir nömrəli şirkətinin texnikası bu gün Goranboydadır, ölkəmizin hər bir yerindədir. Biz son illər ərzində kənd təsərrüfatı üçün minlərlə texnika almışıq və yenə də alacağıq".

Rəsmi məlumatlara görə, indiyədək 23 aqroparkın yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 173 mln. manat güzəştli kredit, 27 aqroparka isə 1 mlrd. manat dəyərində investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi almış 25 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə bir çox təsdiqedici sənədlər verilib və bu təsdiqedici sənədlər üzrə həmin aqroparklar 32,8 mln. manat dəyərində güzəştlər əldə ediblər. Bu günədək aqroparklara 1,2 mlrd. manat özəl investisiya qoyulub. 2017-2020-ci illər ərzində aqroparklarda ümumi sahəsi 7500 hektardan çox olan intensiv meyvə bağları salınıb ki, bu meyvə bağlarından 2020-ci ildə 12 min ton alma, 393,5 ton zeytun, 183 ton badam, 200,7 ton nar, 165,7 ton üzüm və s. yığılıb. Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumi olaraq 4750-dək işçi daimi, 4800-dən çox işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4500-dən çox iş yerinin yaradılması nəzərdə tutulur.

Regionlarda müasir tələblərə cavab verən aqroparkların yaradılması vacib məqamları özündə birləşdirir. İlk növbədə, bu cür layihələrin həyata keçirilməsi kənd təsərrüfatının inkişafına təkan verir, bu sahədə elmi yeniliklərin tətbiqinə şərait yaradır. Bununla yanaşı aqroparklar ərzaq təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyətə malikdir. Ən əsası isə bu cür müəssisələrin fəaliyyətə başlaması rayonun iqtisadi imkanlarını artırmaqla yeni iş yerlərinin yaranmasına səbəb olur. Belə müəssisələrin fəaliyyətə başlaması həm də regionların özünü maliyyələşdirməsi, mövcud iqtisadi potensialdan daha səmərəli istifadə, idxalı əvəzləyən və ixracyönümlü istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin tərkib hissəsi kimi xarakterizə edilir.

**Mustafa KAMAL,**
**"Respublika".**



# SOSİAL həyat

## "Ümumrespublika Xəmsə Festivalı"nın regional turu




**Sabirabad şəhəri, Heydər Əliyev Mərkəzinin qarşısında açıq havada "Nizami Gəncəvi ili"nə həsr olunmuş "Ümumrespublika Xəmsə Festivalı"nın II regional turu keçirilmişdir.**

Tədbirdə Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Həsənova və Neftçala, Salyan, Şirvan, Hacıqabul, Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd, Füzuli bölgələrini əhatə edən gənclər iştirak edirdilər. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər gül dəstələri qoydular.

Daha sonra festival iştirakçılarını salamlayan YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Həsənova dövlətimizin başçısı İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan edildiyini diqqətə çatdıraraq bildirdi ki, paytaxt və bölgələrdə bununla bağlı silsilə tədbirlər keçirilir, gənclərin Nizami yaradıcılığı barədə daha dolğun məlumat əldə etmələri üçün geniş imkanlar yaradılır.

Nizami dühasının hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olduğunu xüsusi qeyd edən M.Həsənova vurğuladı ki, ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli işlər görülüb. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılıb. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə qeyd edilir. Prezident İlham Əliyevin dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyini nəzərə alaraq 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi də bunun bariz nümunəsidir.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirdi ki, açıq havada keçirilən intellektual festivalın məqsədi Azərbaycan gəncliyinin dünyagörüşünə, fərdi inkişafına töhfə vermək, onlar arasında mövcud əlaqələri inkişaf etdirmək və milli-mənəvi dəyərlərimizə, tariximizə bağlı vətəndaş kimi formalaşmalarına dəstək verməkdir. Qeyd etdi ki, Azərbaycanın bütün regionlarını əhatə edəcək festivalda ümumilikdə 420 gənc iştirak edəcək. Yeni Azərbaycan Partiyasına üzv və bitərəf gənclərdən formalaşdırılmış 84 komanda festival çərçivəsində 9 regional turda mübarizə aparacaq.

B.İslamov, eyni zamanda Azərbaycan gəncliyinin tariximiz, ədəbiyyatımız, milli-mənəvi dəyərlərimiz barədə zəngin bilik əldə etməsində bu səpkili tədbirlərin əhəmiyyətindən danışdı.

Sonra dahi Azərbaycan şairinin bəşəriyyətə bəxş etdiyi "Xəmsə" əsasında intellektual yarışmalara start verildi.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

## QAZAX

## İsmayıl Şıxlının Kosalar kəndində büstü açılıb




**Ölkəmizin qərb qapısı, saz-söz, ədəbiyyat, mədəniyyət beşiyi Qazaxda daha bir tarixi gün yaşanıb. Qazax Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan Kosalar kənd tam orta məktəbdə büstünün açılışı olmuşdur.**

Tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, icra aparatının məsul şəxsləri, Xalq yazıçısının övladları, Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna", "Zerkalo" qəzetlərinin, ayna.az saytı və Ayna TV-nin təsisçisi və baş redaktoru Elçin Şıxlı, rəssam, jurnalist, "Ayna", "Zerkalo" qəzetlərinin məsul katibi Fərrux Şıxlı, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal, Əməkdar jurnalist, filologiya elmləri doktoru, BDU-nun jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli, "Yeni nəsil" Jurnalistlər Birliyinin sədri, "Bakı Press klubu"nun prezidenti Arif Əliyev, "Altun kitab" nəşriyyatının təsisçisi və direktoru, filologiya üzrə fəlsəfə doktoru Rafiq İsmayılov, rejissor, Azərbaycan Kinematoqrafçılar İttifaqı idarə heyətinin üzvü Tahir Tahiroviç (Əliyev), rəssam Qafar Sarıvəlli, "Qazax" Xeyriyyə İctimai Birliyinin üzvlərindən professor Məti Osmanoğlu, şair Rəfayıl İncəyurd, Səbinə Yusif, Vətən müharibəsi iştirakçısı, "Qarabağ" ordenli, polkovnik Elçin Məmmədov, idarə, müəssisə rəhbərləri, ziyalılar, məktəb direktorları, ağsaqqallar, AYB-nin üzvləri, Xalq yazıçısının adını daşıyan məktəbin müəllimləri, kənddə yaşayan qohumları, KİV nümayəndələri iştirak ediblər.

Xalq yazıçısının xatirəsini əbədiləşdirən büstün açılışını bildirən qırmızı lent kəsildikdən sonra torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək tədbir iştirakçılarını salamlayıb, əlamətdar gün münasibətilə səmimi ürək sözlərini bölüşüb.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tədbir iştirakçılarını salamlayıb, tədbirdə iştirak edənlərə minnətdarlığını bildirib, ziyalılarımız akademik Teymur Bünyadovun, Xalq şairi Nəriman Həsənzadənin, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin sədri, Əməkdar müəllim, professor İlham Pirməmmədovun təbriklərini çatdırıb.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Qəhrəman oğlu Şıxlının anadan olmasının 100 illiyi ilə bağlı Respublika Prezidenti İlham Əliyev tərəfindən görkəmli şəxsiyyətin 100 illik yubileyinin respublika səviyyəsində keçirilməsi ilə əlaqədar imzaladığı 28 yanvar 2019-cu il tarixli Sərəncam təkcə İsmayıl Şıxlı şəxsiyyətinə verilən qiymət deyil, bütövlükdə, qazaxlılara, rayon ziyalılarına verilən ən böyük dəyər oldu.



Rayon rəhbəri Xalq yazıçısı İsmayıl Şıxlı yaradıcılığına böyük qiymət verərək 100 illik yubileyinin qeyd olunması ilə bağlı imzaladığı Sərəncama görə Respublika Prezidenti İlham Əliyevə bütün qazaxlı ziyalılar adından bir daha öz dərin minnətdarlığını bildirib. R.Babaşov qeyd edib ki, xoşbəxt insan o şəxsdir ki, özündən sonra iz qoyur və əbədi qəlblərdə yaşayır. "İsmayıl Şıxlı şəxsiyyəti də məhz elə insanlardandır", - deyən icra başçısı özündən sonra iz qoymuş böyük insanın həyat və yaradıcılığından söz açıb. Ulu Öndərin Xalq yazıçısına verdiyi dəyərdən danışan icra başçısı Ümummilli Liderin İsmayıl Şıxlının 75 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamdan, ünvanladığı təbrik məktubundan söz açıb. İcra başçısı bildirib ki, ulu öndərin təbrik məktubunda da qeyd edildiyi kimi, İsmayıl Şıxlı istedadlı yazıçı, müdrik və mahir pedaqoq, mübariz vətəndaş kimi xalqın qəlbində əbədi məskən salıb. Belə bir sevgiyə layiq görülmək ən böyük səadətdir.

İcra başçısı bildirib ki, İsmayıl Şıxlı şəxsiyyətinə verilən qiymətin ifadəsi olaraq ölkə başçısının diqqət və qayğısı sayəsində görkəmli şəxsiyyətin adını daşıyan Kosalar kənd tam orta məktəbi əsaslı şəkildə yenidən qurulub. Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın qayğısı sayəsində bu gün qarşısında büstünün açılışına toplaşdığımız məktəb binası Xalq yazıçısının 100 illik yubileyinə daha bir töhfə oldu.

Daha sonra şair Barat Vüsal ölkə Prezidentinin İsmayıl Şıxlının 100 illik yubileyi ilə bağlı imzaladığı Sərəncamdan sonra Qazax rayonunda görülmüş işlərdən, Xalq yazıçısının həyat və yaradıcılığından danışaraq ətraflı məlumat verib. Xalq yazıçısının 100 illiyi münasibətilə Qazax Rayon İcra Hakimiyyəti başçısının təşəbbüsü və dəstəyi ilə "Dəli Kür ömrü" adlı kitabın çap olunduğunu, büstünün hazırlandığını minnətdarlıq hissilə qeyd edib.

Əməkdar jurnalist, filologiya elmləri doktoru, BDU-nun jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli çıxış edərək, Xalq yazıçısı ilə bağlı fikirlərini bölüşüb. Natiq çıxışında İsmayıl Şıxlının təkcə şəxsiyyət, yaradıcılıq etibarı ilə deyil, onları bütöv şəkildə birləşdirən Azərbaycanın təmsilçisi, onun Azərbaycan kişiliyinin timsalı olduğunu bildirib.

Digər natiqlər də İsmayıl Şıxlı yaradıcılığının Azərbaycan ictimai fikir tarixindəki rolundan, ədəbiyyatımıza verdiyi töhfələrdən bəhs ediblər.

Xalq yazıçısının oğlu Elçin Şıxlı çıxış edərək atası ilə bağlı xatirələrindən danışıb. Atasının adını daşıyan məktəbin, təhsil ocağının əsaslı şəkildə yenidən qurulmasına və həyətində büstünün qoyulmasına görə ölkə Prezidentinə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib. Tədbirin yüksək səviyyədə təşkil olunmasına görə rayon rəhbərliyinə təşəkkürünü çatdırıb. Büstün müəllifi Azərbaycan Respublikasının Xalq rəssamı, Azərbaycan Dövlət Akademiyasının professoru, heykəltəraşlıq kafedrasında emalatxana rəhbəri və akademiyanın bədii-metodiki şurasının sədri, "Şöhrət" ordenli Natiq Əliyevə ailəsi adından minnətdarlıq edib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

## Lisey tədris ilinə tam hazırdır



**1994-cü ildən fəaliyyət göstərən Ağstafa şəhər texniki-humanitar təmayüllü lisey Qazax-Tovuz iqtisadi rayonundakı yeganə yeni tipli tədris müəssisəsidir. Liseyin məzunları müxtəlif illərdə ölkəmizin, Türkiyə Cümhuriyyətinin və digər ölkələrin ən nüfuzlu ali məktəblərinə qəbul olunmuşlar. Şagirdlər hər il fənn olimpiadalarının rayon turunda yüksək yerlər tutaraq respublika olimpiadalarında müvəffəqiyyətlə iştirak etmiş, respublika səviyyəli müxtəlif müsabiqələrdə qalib gəlmişlər.**

Liseyin direktoru Nağı Nağıyev bildirdi ki, 2020/2021-ci dərs ilində 25 məzundan 17 nəfəri (68%) ali məktəblərə qəbul olunublar.

Liseyin ümumi fəaliyyəti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən layiqincə qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 avqust 2008-ci il tarixli və 20 iyun 2012-ci il tarixli sərəncamları ilə Ağstafa şəhər texniki-humanitar təmayüllü lisey "Ən yaxşı ümumi təhsil müəssisəsi" I və V Respublika müsabiqələrinin qalibi elan edilmişdir. Lisey ölkəmizdə bu yüksək mükafata iki dəfə layiq görülmüş ilk ümumi təhsil müəssisəsidir.

Yüksək göstəricilərinə görə tədris ocağı 2013-cü ildən Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə "Elektron məktəb" pilot layihəsinə qoşulmuşdur.

Müəllimlərdən 2 nəfəri "Əməkdar müəllimi" fəxri adına, 1 nəfəri "Tərəqqi" medalına, 1 nəfəri isə "Qabaqcıl Təhsil İşçisi" döş nişanına layiq görülmüşlər. 4 nəfər müəllim isə gənc nəslin təlim-tərbiyəsi sahəsində səmərəli pedaqoji fəaliyyətlərinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının qərarı ilə fəxri fərmanlarla təltif edilmişlər.

Hazırda liseydə 160 nəfər şagirdin təlim-tərbiyəsi ilə 34 nəfər ali təhsilli müəllim məşğuldur.

Hazırda liseydə yeni tədris ilinə hərtərəfli hazırlıq işləri aparılır. Tədris ocağının direktoru milli təhsilə göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya özü və rəhbərlik etdiyi kollektiv adından dərin minnətdarlığını ifadə etdi.

**Vəli VƏLİYEV,**
**"Respublika".**




## Bu ilin 8 ayında 35 minə yaxın şəxsə əlillik təyinatı aparılıb

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2021-ci ilin yanvar-avqust ayları ərzində 35 minə yaxın şəxsə əlillik təyin edilib.***

*Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin məlumatına görə, onlardan 11 min nəfəri ilkin, qalanları isə təkrar əlillik təyinatı aparılanlar, habelə sağlamlıq imkanları məhdudluq təyin olunanlardır. Əlillik təyinatından sonra proaktiv qaydada elektron sistem üzərindən onlara əlilliyə görə pensiya və ya müavinətlər təyin olunub.*

*İlin 8 ayında həmçinin əlilliyi olan 8,5 min şəxsə 30 minədək reabilitasiya vasitəsi verilib. Onların bir hissəsinə bu vasitələr yaşadıqları ünvanlara aparılaraq çatdırılıb. Yanvar-avqust aylarında Agentliyin reabilitasiya müəssisələrində əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 4,6 min şəxsə reabilitasiya xidmətləri göstərilib.*

*"Respublika".*

## QAX:

## Vaksinasiya pandemiyaya qarşı mübarizənin ən sərfəli yoludur

**Qax Rayon Mərkəzi Xəstəxanasının vaksinasiyanın icrasına nəzarət üzrə təhkim olunan həkimi Sevinc Əsgərova dünyada və ölkəmizdə geniş yayılan COVİD-19 pandemiyasına qarşı davamlı tədbirlərdən danışaraq bildirmişdir ki, COVİD-19 xəstəliyi yeni kəşf olunan SARS-CoV-2 virusu tərəfindən törədilən yoluxucu xəstəlikdir.**

Digər koronavirus mənşəli (SARS və MERS) xəstəliklərdən fərqli olaraq yüksək yoluxuculuq qabiliyyətinə malik olan və atipik pnevmoniya ilə müşahidə olunan bu xəstəlik 2019-cu ilin sonundan etibarən sürətlə yayılmağa başlamış və bütün dünyanı əhatə etmişdir. Ümumdünya Səhiyyə Təşkilatı 2020-ci il 23 yanvar tarixində COVİD-19 xəstəliyi ilə bağlı fövqəladə vəziyyət elan etmiş, 2020-ci il 28 fevral tarixində yaranmış təhlükənin qiymətləndirilməsini qlobal miqyasda çox yüksək dərəcədə olmasını elan etmiş və 2020-ci il 11 mart tarixində bu xəstəliklə bağlı vəziyyətin pandemiya səviyyəsinə çatmasını bəyan etmişdir.



Pandemiyanın elan edildiyi vaxtdan bu günə qədər onunla mübarizədə fərqlənən, ona qarşı vaxtında və effektiv tədbirlər görən ölkələr sırasında Azərbaycan Respublikası da yer almışdır.

Strategiyanın əsas məqsədi hazırda geniş yayılmış COVİD-19 xəstəliyinin vaksinasiya ilə qarşısının alınmasına, yoluxma və ölüm səviyyəsinin aşağı enməsinə nail olmaqdır.

Vaksin preparatlarının seçimində əsas meyar vaksin preparatlarının təhlükəsizliyi və effektivliyidir.

Respublikanın hər yerində olduğu kimi rayonumuzda da vaksinasiya prosesi uğurla həyata keçirilir. Bu ilin əvvəlindən bu günə qədər Çin istehsalı olan Sinovac peyvəndindən istifadə edilərək 44634 peyvəndləmə prosesi həyata keçirilmişdir. Onlardan 25942 - I doza, 18692 - II dozadır. Hər bir vaksin olunacaq vətəndaş ilk növbədə həkim müayinəsindən keçirilir. Əks-göstərişləri olanlar həkim komissiyasına yönləndirilir. Vaksinasiya prosesi zamanı heç bir ağırlaşma halları qeyd edilməmişdir.



Qax rayonunda əhalinin sağlamlığının daha da yaxşılaşdırılması üçün digər vacib və təxirəsalınmaz tədbirlər uğurla həyata keçirilir.

**Rasim AMANOV,**
**"Respublika".**

# Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək

## *Festivalın ilk konsertlərindən biri Şuşada təşkil ediləcək*

**Sentyabrın 18-dən 24-dək ölkəmizdə ənənəvi Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının keçirilməsi nəzərdə tutulur. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın qətiyyəti, Ordumuzun şücaəti nəticəsində tarixi ədalət bərpa edilib və Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olunub.**




Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu səbəblə builki festivalın ilk konsertlərindən biri də Şuşa şəhərində keçiriləcək. Sentyabrın 18-də Üzeyir Musiqi Günündə Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi altında Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və tanınmış solistlərin iştirakı ilə Şuşada açıq havada konsert təşkil olunacaq.

Bundan əlavə, sayca XIII olan bu festival çərçivəsində Bakı, Gəncə və Ağdamda bir neçə tədbirin təşkili planlaşdırılıb. Eyni zamanda, cari festival çərçivəsində ilk dəfə olaraq "Üzeyir sənətinin gənclik sədaları" adı altında yeni proqrama start verilib və gənclərə böyük səhnədə özlərini nümayiş etdirməyə şans yaradılıb.

Festival çərçivəsində Azərbaycanın bədii kollektivləri, solistləri ilə yanaşı, ABŞ və Polşadan dəvət olunmuş məşhur musiqiçilərin də çıxışı nəzərdə tutulub.

Onu da vurğulamaq lazımdır ki, mövcud pandemiya şəraiti ilə əlaqədar tədbirlərə yalnız xüsusi dəvətnamələr və COVİD pasportu ilə giriş mümkün olacaq.

**AZƏRTAC**

# Peşəkar və qayğıkeş həkim



Ötən ilin sonlarından dünyanı bürüyən koronavirus pandemiyası bütün həyatımızı dəyişdi. Həkimlərin işi isə daha çətinləşdi, gecə-gündüz iş yerlərində qalıb insanların sağlamlığının müdafiəsində duran neçə-neçə tibb işçisi öz həyatını itirdi, saysız-hesabsız insanlar sağlamlığına qovuşdu, normal həyata qayıtdı. Ağxalatlı həkimlərimiz gözlərimizdə bir daha ucaldı...



Həkimlik sənəti tarix boyu ülvi bir peşə olub, həkimə həmişə müqəddəs bir varlıq kimi baxmışıq. Sənətini mükəmməl bilən, insanların sağlamlığının keşiyində ləyaqətlə dayanan, onların qayğısına qalan həkimlər el-obada xətir-hörmət sahibi olublar.

Həkim adını daşımaq nə qədər məsuliyyətli olsa da, bir o qədər də şərəflidir. Möcüzəli əlləri ilə insanlara şəfa bəxş edərək, yaşamağa ümidlərini artırmaq, xoş bir sözlə könülləri ovutmaq... Düzgün müayinə aparıb, düzgün diaqnoz qoymaq isə müsbət nəticə almaq üçün əsas şərtdir. İşini yaxşı bilən həkimin qapısını döyənlər həmişə çox olur.

Nihad Əliyev də belə həkimlərdəndir, öz davranışı, dürüstlüyü, insanpərvərliyi, qayğıkeşliyi ilə özünə böyük hörmət qazanan təcrübəli tibb işçisidir.

Əliyev Nihad Fuad oğlu Gəncə şəhərində anadan olub, 1989-cu ildə Sumqayıt şəhərində orta məktəbi bitirib və həmin il Azərbaycan Dövlət Tibb Universitetinin Stomatologiya fakültəsinə daxil olub. 1994-cü ildə həmin fakültəni müvəffəqiyyətlə başa vurduqdan sonra, elə həmin il Sumqayıt şəhəri 2 nömrəli Stomatoloji poliklinikada həkim-stomatoloq kimi fəaliyyətə başlayıb. 1998-ci ildə səhiyyə nazirinin müvafiq əmri ilə həmin müəssisənin baş həkimi vəzifəsinə təyin olunub. 1999-2008-ci illər ərzində Sumqayıt şəhəri 2 nömrəli stomatoloji poliklinikasında rəhbərlik etməklə yanaşı, həmçinin şəhərin baş stomatoloqu kimi də fəaliyyət göstərib. 2008-ci ildən isə "AQS" Medical Center Klinikasının baş həkimidir.

Nihad Əliyev daim öz üzərində çalışan, biliyini, savadını artırmağa cəhd göstərən tibb işçisidir. Tibbi yenilikləri öyrənmək, onu praktik işdə tətbiq etmək isə ona həmişə uğur gətirir. 2007-2010-cu illərdə Amerika Meffert İmplant İnstitutunun Ankara filialında təhsil alan Nihad Əliyev burada peşəsini daha da təkmilləşdirib, daha böyük enerji və inamla işini davam etdirib.

Beynəlxalq İmplantoloqlar Cəmiyyətinin və Azərbaycan "İmplantoloq" İctimai Birliyinin, Amerika Meffert İmplant İnstitutunun üzvüdür. Ölkəmizdə, müxtəlif dövlətlərdə (Türkiyə, Rusiya, İngiltərə, Almaniya, Fransa, İspaniya, Hollandiya, Finlandiya, İsveç, Belçika, Portuqaliya və Ukrayna) yüzə yaxın müvafiq ixtisasartırma kurslarında olub, seminarlarda, eləcə də dünyanın ən nüfuzlu konqres və simpoziumlarında iştirak edən Nihad həkim səmərəli fəaliyyətinə görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb, Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ziyalı ailəsində dünyaya gələn Nihad həkim qədirbilən övlad, sevimli həyat yoldaşı, qayğıkeş atadır. Atası Fuad Əliyev ali kateqoriyalı mühəndisdir, müxtəlif vəzifələrdə çalışıb. Anası Nişanə xanım isə riyaziyyat müəllimidir. İndi hər ikisi təqaüddədir.

Nihad həkim ailəlidir, həyat yoldaşı Mina xanım müəllimdir. Övladlarından Fuad şərqşünas, Aydan müəllim, Nihal isə tələbədir.

Nihad həkim ötən illəri heç də boşuna yaşamayıb, özünü yaxşı həkim, əsl insan kimi tanıdıb. Peşəkar həkim-stomatoloq, cərrah-implantoloq-ortoped kimi neçə-neçə pasiyentə sevinc bəxş edib, üzünü güldürüb. Ona bu yolda uğurlar arzulayırıq.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# Hərbi Dəniz Qüvvələrində keçirilən birgə təlimlər başa çatıb

**Hərbi Dəniz Qüvvələrində Azərbaycan və Türkiyə sualtı hücum və müdafiə qruplarının təlim-məşqlərinin başa çatması ilə bağlı tədbir keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov tədbirdə çıxış edərək bildirib ki, təlimlərdə qarşıya qoyulan tapşırıqlar iki qardaş ölkənin hərbi qulluqçuları tərəfindən uğurla və peşəkarlıqla yerinə yetirilib.

Təlimlərdə fərqlənən hərbi qulluqçulara fəxri fərman və qiymətli hədiyyələr təqdim edən kontr-admiral S.Bəkirov onlara gələcək xidmətlərində daha böyük nailiyyətlər qazanmağı arzulayıb.

Qeyd edək ki, iki qardaş ölkə ordularının nümayəndələrinin iştirakı ilə keçirilən birgə təlimlərin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı bölmələrin qarşılıqlı fəaliyyətlərinin təkmilləşdirilməsi, xüsusi təyinatlı tapşırıqların icrası zamanı uzlaşmanın təmin olunması, eləcə də peşəkarlığın və bölmələrin idarəetmə vərdişlərinin inkişaf etdirilməsidir.

**AZƏRTAC**

# "Könül yolçuluğu": Türkiyəli yazıçılar Gəncədə



**Türkiyənin tanınmış yazarı Coşkun Karabulutun rəhbərliyi ilə qardaş ölkənin müxtəlif şəhərlərindən bir qrup yazıçı Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbənin sevincini paylaşmaq və ölkəmizdəki qələm dostlarını təbrik etmək üçün "Könül yolçuluğu" platforması ilə Azərbaycana səfərə gəliblər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfər çərçivəsində onlar Gəncə şəhərində dahi şair Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər. Türkiyəli yazarlara məqbərə haqqında ətraflı məlumat verilib.

Sonra qonaqlar ötən ilin oktyabrında Gəncədə erməni terroru nəticəsində çoxlu sayda mülki şəxsin öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla cəbhə xəttindən xeyli aralıda yerləşən yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Yazıçı Seval Beyazgül Azərbaycana səfərin məhz Gəncə şəhərindən başlamasının dahi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə onun məqbərəsini ziyarət etmək məqsədi daşıdığını deyib: "Tarixi bir müharibədə Gəncə xalqının çəkdiyi əzab və acıları gözümüzlə gördük. Erməni vandalizminin və cinayətinin canlı şahidi olduq. Burada baş verənləri, gördüklərimizi bütün dünya mediasında yayımlayacağıq".

Türkiyənin Kütahya şəhərindən olan yazıçı, şair İsmayıl Başpınar gördüklərindən dəhşətə gəldiyini bildirib. "Könlümüzün yandığı, ağrılarımızın baş qaldırdığı yerdəyik. Mənim də övladlarım var. Burada şəhid olan azyaşlı uşaqları görəndə ürəyim yandı. Biz Türkiyə dövləti və milləti olaraq hər zaman sizin yanınızdayıq. Şəhidlərimizi dərin hörmətlə anırıq," - deyə türkiyəli yazıçı erməni terroru nəticəsində çoxlu sayda mülki şəxsin öldüyü və böyük dağıntıların yarandığı əraziyə baş çəkərkən deyib.

**AZƏRTAC**

*ANAMA:*

# Ötən həftə 293 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.**

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, sentyabrın 6-dan 11-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 119, tank əleyhinə 30 mina və 109 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 293 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**

# Son sutkada Azərbaycanda koronavirus infeksiyasına 1157 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda yeni növ koronavirus (COVİD-19) infeksiyasına son sutkada 1157 yoluxma faktı qeydə alınıb, 3065 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 31 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 461 min 249 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 412 min 469 nəfər müalicə olunaraq sağalıb, 6 min 134 nəfər vəfat edib. Aktiv xəstə sayı 42 min 646 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 min 123, bu günə qədər isə ümumilikdə 4 milyon 661 min 119 test icra olunub.

**AZƏRTAC**

# Azərbaycanda COVİD-19 əleyhinə birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 508 min 115 nəfərdir

**Sentyabrın 13-də Azərbaycanda 1266 nəfər yeni növ koronavirus (COVİD-19) infeksiyası əleyhinə vaksinasiya olunub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 1077, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 189 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyon 611 min 206, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 508 min 115, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 103 min 91 nəfər təşkil edir.

**AZƏRTAC**




## ABŞ SƏUDİYYƏDƏKİ RAKET SİSTEMLƏRİNİ NAMƏLUM BÖLGƏYƏ APARDI



ABŞ Səudiyyə Ərəbistanındakı Şahzadə Sultan hərbi bazasındakı bütün hava hücumundan müdafiə sistemlərini geri çəkib. "Teleqraf.com"un verdiyi xəbərə görə, "Assoşieyted Press" agentliyi ABŞ-ın "Patriot" və "THAAD" sistemlərini avqustun sonlarında bazadan çıxardığını qeyd edib.

Məlumata əsasən, "THAAD" "Patriot" raketlərindən daha yüksək dəqiqlikli müdafiə sistemi hesab olunur. Hazırda bazada batareyaların tamamilə boş olduğu bildirilir.

Aylardır ABŞ-ın Səudiyyə Ərəbistanındakı müdafiə sistemlərini digər bölgələrdə yerləşdirəcəyi ilə bağlı iddia dolaşırdı. Agentlik bildirir ki, bunun səbəbi Çin və Rusiya kimi qlobal aktyorlarla qarşıdurma riskinin artmasıdır.

Eyni zamanda, ABŞ-ın Müdafiə Nazirliyi hava hücumundan müdafiə sistemlərini ölkədən çıxarılması məsələsinin Səudiyyə Ərəbistanı ilə razılaşdırıldığını açıqlayıb.

## UKRAYNA LATIN ƏLİFBASINA KEÇƏ BİLƏR



Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksey Danilov bildirib ki, ölkədə kiril əlifbasından latın əlifbasına keçilə bilər. "Report" agentliyinin verdiyi xəbərə görə, bununla bağlı katib "Azadlıq Radiosu"nun efirində danışıb.

Aleksey Danilovun fikrincə, ölkədə yazı dilini dəyişdirmək əsas məsələlərdən biridir. Danilov, həmçinin ikinci dövlət dili statusunun ingilis dilinə verilməsini də təklif edib.

Qeyd edək ki, 2019-cu ilin aprelində "Ukrayna dilinin dövlət dili olaraq fəaliyyətinin təmin edilməsi haqqında" qanun qəbul edilib. 2021-ci ilin iyulun 16-dan etibarən Ukrayna televiziyasında yalnız ana dilə tərcümə olunan filmlər və seriallar yayımlanır, əlavə olaraq konsertlər, əyləncə şouları, sərgilər, ekskursiyalar, teatrlar və muzeylər üçün dövlət dili məcburi hala çevrilib.

## KORONAVİRUSA QARŞI PEYVƏNDİN ƏLAVƏ FAYDASI



ABŞ tədqiqatçıları koronavirusa qarşı peyvənd edilən insanların gələcəkdə daha az stress yaşadıqlarını və onların psixi vəziyyətlərinin yaxşılaşdığını iddia edirlər. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə "PLOS ONE" elmi jurnalında dərc olunmuş məqalədə bildirilir.

Cənubi Kaliforniya Universiteti mütəxəssisləri 2020-ci ilin martından 2021-ci ilin mart ayına qədər pasiyentlərdən hər iki həftədə bir dəfə pandemiya zamanı öz ruhi vəziyyətlərini qiymətləndirmək üçün anketləri doldurmağı xahiş ediblər. Ümumilikdə tədqiqatda səkkiz mindən çox insan iştirak edib.

Nəticədə, peyvəndin ən azı bir dozasını alan respondentlərdə güclü neqativ duyğuların yaranma ehtimalının 15 faizdən az olması məlum olub. Qadınlarda isə bu göstəricilər kişilərə nisbətən bir qədər yüksək olub.

Məlumat üçün qeyd edək ki, bu yaxınlarda tədqiqatçılar kişilərin və qadınların koronavirus pandemiyası nəticəsində müxtəlif şəkildə stresə məruz qaldıqlarını bildirmişdilər.

## AEBA İRANIN KÖHNƏ RAZILAŞMALARLA BAĞLI FİKRİNİ ÖYRƏNƏCƏK



Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) yeni İran hakimiyyətinin agentliyin əvvəlki İran hökuməti ilə əldə etdiyi razılaşmalara riayət etməyə hazır olub-olmadığını öyrənməyi planlaşdırır. "Trend" agentliyinin məlumatına görə, bunu Vyanada keçirilən mətbuat konfransı zamanı AEBA-nın baş direktoru Rafael Qrossi bəyan edib.

"Əvvəlki rəhbərliklə müəyyən müqavilələrimiz mövcud idi. Hazırkı rəhbərliyin bunların icrasına razı olub-olmadığını və ya dəyişdirmək istədiyini müəyyən etmək lazım gələcək", - deyə baş direktor vurğulayıb.

Tehrana səfərini şərh edən Rafael Qrossi keçirilən görüşləri konstruktiv adlandırıb, lakin İranın nüvə proqramının optimal şəkildə monitorinqi üçün hələ çox işlərin görülməli olduğunu qeyd edib.

## ÜST: KORONAVİRUS UZUN İLLƏR ƏRZİNDƏ HƏYATIMIZDA QALA BİLƏR



Koronavirus, onun mutasiya olunmuş formaları və yeni ştammlara qarşı peyvəndin etibarlı olması şübhə altındadır. "Report" agentliyinin verdiyi xəbərə görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Klüge bəyan edib.

İkili doza vaksinin koronavirusa 70 faiz son qoya biləcəyini ifadə edən Hans Klüge yeni ştammların mövcudluğuna təsir edib-etməyəcəyinin şübhə doğurduğunu dilə gətirib.

ÜST rəsmisi hazırda sürətlə yayılmaqda olan "delta" ştammına qarşı daha tutarlı peyvəndin hazırlanmasının zəruriliyini vurğulayıb.

"Virusun qrip kimi uzun illər həyatımızda qala biləcəyini nəzərə alsaq, peyvənd strategiyamızı da buna uyğunlaşdırmalıyıq", - deyə Hans Klüge əlavə edib.

ÜST rəsmisinin fikrincə, hökumətlər də tezliklə yeni strategiyalar təyin etməlidirlər. Əks təqdirdə, bütün dünyanı uzun müddət çətin günlər gözləyir.

## MOSKVADA ƏMƏK MİQRANTLARININ ÇATIŞMAZLIĞI YAŞANIR



Rusiya paytaxtında tikinti sahəsində hələ də miqrant çatışmazlığı yaşanır. Hazırda Moskvanın təxminən 200 min əcnəbi işçiyə ehtiyacı var. "APA"nın məlumatına görə, bu barədə "İzvestiya" qəzeti paytaxtın vitse-meri Vladimir Yefimova istinadən xəbər verib.

"Ümid edirik, yaxın gələcəkdə ölkəyə giriş məhdudiyyətləri yumşaldılacaq", - deyə V.Yefimov bildirib.

Vitse-merin sözlərinə görə, şəhərdə əmək miqrantlarının çatışmazlığı işəgötürənlərin - ilk növbədə, tikinti şirkətlərinin - işçiləri bir-birindən təkrar cəlb edilməsinə səbəb olur. Bu səbəbdən xidmətlərin dəyəri artır.

Vladimir Yefimov əlavə edib ki, koronavirus pandemiyasından bir neçə il əvvəl Moskvada mənzil qiymətləri demək olar artmırdı. "Pandemiya fonunda mənzillərin qiyməti artıb", - deyə vitse-mer vurğulayıb.

## "TESLA" AVTOMOBİLLƏRİNDƏ LAZER ŞÜŞƏSİLƏN TƏTBİQ ETMƏK NİYYƏTİNDƏDİR



ABŞ-ın elektrikli avtomobil istehsalçısı "Tesla" şirkəti lazer şüşəsiləni patentləşdirib. Bu barədə "Report" agentliyi məlumat yayıb. Patent sənədlərinə görə, şüalar şüşənin üzərindəki zibil və çirki identifikasiya edərək onu yandıracaq.

Həmçinin istisna olunmur ki, lazer təkcə avtomobilin ön şüşəsini deyil, elektrokarın digər şüşələrini də təmizləyəcək. Funksiyanın əsas üstünlüklərindən biri tamamilə avtonom olması və sürücüdən hər hansı hərəkət tələb etməməsidir.

Bu texnologiya digər sahələrdə də, o cümlədən günəş panellərinin çirklənmələrdən təmizlənməsində tətbiq edilə bilər.

## PLASTİK TULLANTILARI YOX EDƏN NANO-ROBOTLAR İXTİRA OLUNUB



Çexiyanın Praqa Kimya-Texnologiya Universitetinin alimləri dünya okeanını mikro-plastik tullantılardan təmizləmək üçün nano-robotlar ixtira ediblər. Bu barədə "Sputnik" informasiya agentliyi məlumat yayıb.

Bildirilir ki, maqnitli robotların ölçüsü iti karandaşın ucundan böyük deyil. Tullantılardan əks olunan işıq qurğuya düşdüyü təqdirdə kimyəvi reaksiyalar başlayır ki, bu da kiçik robotun suda müəyyən bir istiqamətdə hərəkət etməsinə səbəb olur. Bundan sonra aparat aşkar edilmiş mikroplastik hissəciyi məhv etməyə başlayır.

Layihəyə kimyaçı Martin Pumera rəhbərlik edib. Onun sözlərinə görə, alimlərin əsas məqsədi dünyanın istənilən yerində istifadə edilə bilən ucuz və ekoloji təmiz robotlar yaratmaqdır. Onun sözlərinə görə, bu cür texnologiya ilk növbədə çirkab suların təmizlənməsi üçün faydalı ola bilər.

**Hazırladı:**
**Vamiq ABBASOV,**
**"Respublika".**

## INVITATION FOR BIDS

**Date: 14/09/2021**

1. Within the framework of the Program "Scaling up the response to the HIV epidemic through strengthening national capacities, prevention and treatment services for most at risk population and maintaining access to and quality of essential MDR/XDR TB services in the Republic of Azerbaijan" the Ministry of Health of the Republic of Azerbaijan (hereinafter - The Ministry of Health) invites sealed bids from qualified Bidders for delivery of "Printing materials".

2. Further additional information and documentation (standard bidding documents) can be obtained from PIU, Ministry of Health, 3, Aliyarbayov Street, Baku, Azerbaijan; Tel.: +994 12 498 20 01; E-mail tender@gfatm.az. The contract number for the grant from the Global Fund under which these goods will be procured is

AZE-C-MOH-1864

3. All bids shall be delivered to the above address at or before 16.00 p.m. Baku time on 27/09/2021. Late bids shall be rejected and returned unopened.

4. The Bids will be opened in the presence of the Bidders' representative who choose to attend the Ministry of Health, 3, Aliyarbayov str., Baku, Azerbaijan on 27/09/2021 at 16.30 p.m. Baku time.

**Tender Committee.**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

***Yüksəkmərtəbəli yaşayış binalarının tikintisi obyektində beton svaylar və betondan istinad divarının kəsilməsi işlərinin satınalınması məqsədilə***

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2021-ci il sentyabrın 22-si saat 17:00-dədir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı şəhəri, Neftçilər prospekti 2.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsi tərəfindən 12 avqust 2021-ci il tarixdə elan edilmiş Təkliflər sorğusu metodu ilə keçirilmiş müsabiqə üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş "Sərnişindaşıma və yükdaşıma xidmətləri"nin satınalınması üzrə "QARAJ-21" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmiş və həmin şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

# Hava necə olacaq?

Proqnoz

14 sentyabr

### Bakı-Sumqayıt-Abşeron



| Gecə | | Gündüz |
|---|---|---|
| 23°C | Şimal küləyi: 7-15 m/san | 28°C |

Nisbi rütubət: gecə 84%, gündüz 48-80% Atmosfer təzyiqi: 757-759 mm c.s.

### Naxçıvan Muxtar Respublikası



| Gecə | | Gündüz |
|---|---|---|
| 18°C | Cənub, Cənub-Şərq küləyi: 1-11 m/san | 32°C |

Nisbi rütubət: gecə 56%, gündüz 16-55% Atmosfer təzyiqi: 681-683 mm c.s.

### Qarabağ, Şərqi Zəngəzur




| Gecə | | Gündüz |
|---|---|---|
| 14°C | Şərq, Şimal-Şərq küləyi: 3-11 m/san | 24°C |

Nisbi rütubət: gecə 86%, gündüz 42-79% Atmosfer təzyiqi: 650-652 mm c.s.

### Gəncə-Qazax



| Gecə | | Gündüz |
|---|---|---|
| 19°C | Şimal, Şimal-Şərq küləyi: 2-8 m/san | 30°C |

Nisbi rütubət: gecə 69%, gündüz 35-73% Atmosfer təzyiqi: 722-723 mm c.s.

### Balakən-Şəki, Quba-Qusar



| Gecə | | Gündüz |
|---|---|---|
| 20°C | Cənub-Qərb, Qərb küləyi: 2-7 m/san | 29°C |

Nisbi rütubət: gecə 59%, gündüz 41-44% Atmosfer təzyiqi: 710-713 mm c.s.

### Mingəçevir-Şirvan



| Gecə | | Gündüz |
|---|---|---|
| 22°C | Şimal, Şimal-Şərq küləyi: 2-10 m/san | 32°C |

Nisbi rütubət: gecə 68%, gündüz 35-50% Atmosfer təzyiqi: 753-756 mm c.s.

### Lənkəran-Astara



| Gecə | | Gündüz |
|---|---|---|
| 22°C | Şimal-Qərb, Şərq, Cənub-Şərq, Cənub küləyi: 2-8 m/san | 27°C |

Nisbi rütubət: gecə 78%, gündüz 55-69% Atmosfer təzyiqi: 759-761 mm c.s.

**Main Medical Department of Ministry of Justice of AR in frame of GFATM TB/HIV project in Penitentiary facilities of AR plans to procure automobile via quotation. All interested parties are wellcome to participate in quotation and should address to:**

Main Medical Department of MoJ

J.Hajibeyli 16&18, AZ1007, Baku Azerbaijan

Tel.: +994125674886

e-mail: sh.jafarov@prisonhealth.az

in order to get RFP.

All proposals should be delevired latest September 27, 2021 till 16:00.

"AQRAR TƏDARÜK VƏ TƏCHİZAT" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ arxiv və təsərrüfat təyinatlı stellaj və dəmir rəflərin yığılmasının satınalınması kotirovka sorğusu üsulu ilə satın almanı həyata keçirir. Maraqlanan təşkilatlar (012) 599 86 74 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.09.2021-ci il saat 12:00 tarixdən, 29.09.2021-ci il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nəriman Nərimanov rayonu, Əhməd Rəcəbli-1, 3*

**Telefon nömrəsi:** *0125998674*

**Faks nömrəsi:** 0125998674

**E-mail:** *procurement@att.gov.az*

## BİLDİRİŞ

18.08.2021-ci il tarixində "Yeni Klinika" PHŞ tərəfindən dövlət satınalmalarının vahid internet portalı və "Respublika" qəzetində elan olunmuş, "Sutəmizləmə filtrlərinin və materialları"nın satınalınması üzrə keçirilmiş kotirovka sorğusu müsabiqəsinin nəticələrinə əsasən, "NİMEX" MMC qalib elan olunmuş və onunla 07.09.2021-ci il tarixində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Yeni Klinika" PHŞ-nin Tender və Kotirovka Komissiyası.**

## "AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## KOTİROVKA SORĞUSUNA DƏVƏT EDİR

Azərbaycan Respublikası Daşkəsən rayonu ərazisində yerləşən "Zəylik Alunit Mədəni" ərazisinin 1:1000 miqyaslı topoqrafik xəritəsinin hazırlanması xidmətlərinin satın alınması

Müsabiqə iştirakçılarına təklif edilir ki, öz kotirovka təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün müsabiqə iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Kotirovkada iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra şərtlər toplusunu əldə edə bilərlər. Əlaqələndirici şəxs: Günel İsmayılova, telefon: +994(77)277-11-06 və ya gunel.ismayilova@ask.gov.az.

**İştirak haqqı: 50.00 manat**

*Satınalan təşkilat: "Azərbaycan Sənaye Korporasiyası" ASC*

*VÖEN: 1305305281*

*Bank: "Azərbaycan Beynəlxalq Bankı" ASC*

*Bankın VÖEN-i: 9900001881*

*Kod: 805722*

*SWİFT: İBAZAZ2X*

*H/h: AZ31İBAZ38060019446065857204*

*M/h: AZ03NABZ01350100000000002944*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*1. Kotirovka sorğusunda iştirak etmək üçün yazılı müraciət;*

*2. Kotirovkada iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Kotirovka təklifi (təkliflərin açıqlandığı tarixdən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*

*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış (qeydiyyatı 01.07.2021-ci il tarixindən sonra olmalıdır);*

*5. İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təqdim olunmuş maliyyə hesabatı (2020-ci il üzrə vergi orqanına təqdim edilmiş mənfəət (gəlir) vergisinin bəyannaməsinin surəti);*

*6. İddiaçının son 1 (bir) bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*8. İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (arayış Dövlət Statistika Komitəsi tərəfindən verilir);*

*9. İddiaçılar müvafiq satınalma müqaviləsini təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, kadr potensialı, işçi qüvvəsi və texniki imkanlarının olması barədə məlumatlar;*

*10. İddiaçının son 3 (üç) illik analoji iş təcrübəsi, yerinə yetirdiyi işlər və müqavilələr barədə məlumatlar.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" AR Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (kotirovka təklifi daxil) 27 sentyabr 2021-ci il saat 17:00-a qədər Bakı şəh., Yasamal r-nu, İzmir küç. 14, ASK VİLLA ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Zərflərin açılması ilə bağlı kotirovka proseduru 28 sentyabr 2021-ci il saat 15:00-da yuxarıda qeyd olunan ünvanda videokonfrans formatında keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Memarlıq və İnşaat Universiteti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 49-cu maddəsinə uyğun olaraq kotirovka sorğusu ilə "Azərbaycan Memarlıq və İnşaat Universitetində İstehlakyönümlü xidmətlər" işləri üzrə satınalmasını həyata keçirir.

Satınalmada iştirak etmək istəyənlər 27 sentyabr 2021-ci il tarixdə saat 15:00-dək Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tender Komissiyasına müraciət edə bilərlər.

Təkliflər 28 sentyabr 2021-ci il tarixdə saat 15:00-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin I saylı tədris binasının 309-cu otağında Tender Komissiyasında açılacaq.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışında iştirak edə bilərlər.

**Ünvanımız:** *Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11.*

**Əlaqə telefonu:** *538-75-07*

**Əlaqələndirici şəxs:** *Vasif Ələkbərov*

**Tender Komissiyası.**

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Mustafayev Emin Xaliq oğlunun adına verilmiş 20/200189 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Zeynalzadə Xatai Rəşadət oğlunun adına verilmiş 18/030170 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyası tərəfindən Arif Saleh oğlu Əlihüseynovun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Şəki Rayon Mərkəzi Xəstəxanasi" PHŞ

## AÇIQ TENDER ELAN EDİR

**Tender 3 lot üzrə keçirilir:**

**LOT-01. Dəftərxana ləvazimatı və təsərrüfat mallarının satınalınması**

**LOT-02. Maşın və avadanlıqların satınalınması**

**LOT-03. Tibbi tullantıların ləğvi və daşınmasının satınalınması.**

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az internet portalına elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT-1 üçün 150 (bir yüz əlli) manat məbləğdə, LOT-2 üçün 150 (bir yüz əlli) manat və LOT-3 üçün 50 (əlli) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu ala bilərlər. İştirak haqqının ödənilməsi yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak üçün dövlət satınalmalarının https//www.etender.gov.az/ vahid internet portalına daxil olduqdan sonra müsabiqədə iştirak etmək olar.

*Müəssisənin adı: "Şəki Rayon Mərkəzi Xəstəxanası" PHŞ*

*Müəssisənin VÖEN-i:3000100721*

*Müəssisənin hesab nömrəsi:AZ28İBAZ38060019446216543266*

*Alan Bank: Beynəlxalq Bankın Şəki filialı*

*Bankın VÖEN-i: 9900001881*

*Bankın kodu: 805410*

*Bankın SWİFT kodu: İBAZAZ2X*

*Bankın müxbir hesabı: AZ03NABZ01350100000000002944*

*Ünvan: Şəki, Z.Əliyeva 177.*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifinə malın qiymətindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər əlavə edilərək ayrıca göstərilməlidir;*

*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- peşəkarlığı, təcrübəsi, texniki imkanları, idarəetmə səriştəsi, etibarlılığı barədə məlumatlar;*

*- son bir il ərzində yerinə yetirdiyi analoji işlər haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Üstünlük Azərbaycan dilinə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04.10.2021-ci il saat 16:00-a, tender təklifi ilə bank təminatı sənədlərini isə 12.10.2021-ci il saat 16:00-a qədər portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 13 oktyabr 2021-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələrilə portal vasitəsilə tanış ola bilərlər. Əlaqələndirici şəxs satınalma üzrə mütəxəssis: Məmmədov Asim Aydın oğlu; tel.: 050 304 04 15

*QEYD: tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.*

*Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.*

**Tender Komissiyası.**

## Masallı Rayon İcra Hakimiyyəti başçısının Masallı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi Masallı şəhərində çoxmənzilli yaşayış binalarının təmiri işlərinin satınalınması məqsədilə

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixinə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz. Əlaqələndirici şəxs: Əhədov Vahid Hüseynbala oğlu

**Ünvan: H.Əliyev prospekti 99.**

**Telefon: 025-215-30-33**

**Tender 1 (bir) lot üzrə keçiriləcək.**

**Lot 1 - Masallı Rayon İcra Hakimiyyəti Masallı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi Masallı şəhərində çoxmənzilli yaşayış binalarının təmiri işlərinin satınalınması.**

**İştirak haqqı: 200 manat**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 200 (iki yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

*Təşkilat: Masallı RİHB-nin Masallı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi*

*Masallı Rayon Yerli Xəzinədarlıq Orqanı*

*H/H AZ43CTRE00000000000002512132*

*VÖEN: 6400043871*

*XƏZİNƏ ORQANİ: 23 saylı Regional Xəzinədarlıq İdarəsi*

*Kodu: 210005*

*Büdcə Təsnifat kodu:142330*

**Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.**

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);

3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);

4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;

- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri 01.10.2021-ci il saat 16:00 tarixə kimi Tender Komissiyasına dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 11.10.2021-ci il, saat 17:00-a qədər elektron portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 12.10.2021-ci il tarixində saat 16:00-da elektron portal vasitəsilə açılacaqdır.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru Hümbət Musayev və qəzetin kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**AMEA Fizika İnstitutunun kollektivi institutun Baş direktoru, akademik Arif Məmməd oğlu Həşimova, bacısı**

**SÜSƏN xanımın**

**vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

---

**ATU-nun III Cərrahi xəstəliklər kafedrasının əməkdaşları ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin rəhbərliyi**

**ƏLİXAN QÜDRƏT oğlu QULİYEVİN**

**vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrasının əməkdaşları, kafedranın müdiri, professor G.Ç.Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində Milli Nüvə Tədqiqatları Mərkəzi QSC-nin sədri, akademik Adil Qəribov AMEA-nın akademik katibi, akademik Arif Həşimova, bacısı**

**SÜSƏN xanımın**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Azər Məmmədov, Fuad İsgəndərov və Natiq Abuzərli Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərova, həyat yoldaşı**

**ZEMFİRA İSMAYILOVANIN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**ATU-nun Tədris Stomatoloji Klinikasının kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Akademik Fikrət Əliyev AMEA Fizika İnstitutunun Baş direktoru, akademik Arif Məmməd oğlu Həşimova, bacısı**

**SÜSƏN xanımın**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**ATU-nun Tədris Stomatoloji Klinikasının direktoru Mahir Səfərov və ailə üzvləri Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**AMEA Fizika İnstitutunun laboratoriya rəhbərləri akademik Məmmədov Nazim Timur oğlu, akademik Abdinov Cavad Şahvələd oğlu, Bayramov Ayaz Hidayət oğlu və institutun HİK-in sədri Bağırova Sitarə Məmmədhüseyn qızı AMEA Fizika İnstitutunun Baş direktoru, akademik Arif Məmməd oğlu Həşimova, bacısı**

**SÜSƏN xanımın**

**vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

---

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorluğu və kollektivi Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə, anası**

**SVETLANA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor**
**Hümbət MUSAYEV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**www.respublika-news.az**
**E-mail: info@respublika-news.az**
**respublikaqezeti@mail.ru**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** **0240**
**Tiraj** **4798**
**Sifariş** **1702**
Qəzetin satış qiyməti 40 qəpik

● **Çapa imzalanmışdır**
**13.09.2021**